KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 351 MAY 2016




khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218-2772

# “DÜNYA” ŞAGİRDLƏRİ “XƏZƏR”DƏ

(səh.16)



# İÇİNDƏKİLƏR


Polşa, İran və İraqın universitet və təhsil şirkətlərinin nümayəndələri ilə görüş . . . . . 4

Azərbaycan Şəhid Mədəni Universitetinin nümayəndə heyəti Xəzər Universitetində . . . . . 5

"Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu"nun 3-cü buraxılışı . . . . . 6

Səhənd Texnologiya Universitetinin nümayəndələri "Xəzər"də . . . . . 11

Tvinniq layihəsinin müşaviri ilə görüş . . . . . 12

"Thomson Reuters"-in əməkdaşları ilə müzakirə . . . . . 14

Ambassador of Pakistan Visits Khazar University . . . . . 15

"Dünya" şagirdləri "Xəzər"də . . . . . 16

"Molla Nəsrəddin"- 110 illiyi . . . . . 20

Kitab təqdimatı: " На имя Багирова, за подписью Багирова" . . . . . 22

"Xəzər" Heydər Əliyev adına liseydə . . . . . 26

Imagine Team of Khazar University Challenges Extremism in a Global Competition . . . . . 30

NDU xəbərləri . . . . . 36

Məktəblilər "Xəzər"in qonağı oldular . . . . . 42

*Rüstəm Qasımov.* Bakıda Aydan Bünyatovanın fərdi sərgisi . . . . . 46

Karyera sərgisi . . . . . 50

"Şekspir Azərbaycanda - qaranlıqdan doğan həqiqət" . . . . . 54

Tələbələr Qobustanda dərs keçdilər . . . . . 60

"Zəkalar" liseyinin şagirdləri Xəzər Universitetində . . . . . 64

Xəzər Universitetinin rəhbərliyi Bakı Türk Liseyində . . . . . 66

*Fərida Ocaqova.* Qələbəyə aparan yol . . . . . 68

*Amos Oz.* Norveç kralı . . . . . 70



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xazar Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Marta Lauri

Rəssam:
Mir Rafiq Əbdülrəhimov

Kompüter tərtibatçısı:
Nigar Aydəmirova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ BAKI 1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1998

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Martha Lawry

Design by:
Mir Rafig Abdulrahimov

Computer graphics:
Nigar Aydemirova

Photo:
Multimedia Centre





## POLŞA, İRAN VƏ İRAQIN UNİVERSİTET VƏ TƏHSİL ŞİRKƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ



Aprelin 22-də Xəzər Universitetində Polşa, İran və İraq universitetləri və təhsil şirkətlərinin nümayəndələri ilə görüş keçirildi. Tədbir Akademi Group Xaricdə Təhsil şirkətinin təşkilatçılığı, Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi və İctimai əlaqələr və media üzrə direktorluğun dəstəyi ilə təşkil olunmuşdu.

Qonaqlar Varşava İqtisadiyyat Məktəbi, "Rony" Təhsil Xidmətləri Şirkəti, Universal Təhsil, "Light (Ziya)" Təhsil Qrupu və "Oskar" Təhsil və Məsləhət şirkətlərinin nümayəndələri idilər.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs qonaqları salamladı və universitet haqqında qısa məlumat verdi. Sonra Beynəlxalq əlaqələr şöbəsinin direktor assistenti Günay Fərzəliyeva Xəzər Universiteti, fakültələr və proqramlar, Azərbaycan və xarici universitetlər arasında reytinqi və dünyanın bir çox universitetləri ilə olan beynəlxalq əməkdaşlıqlar və əlaqələr haqqında təqdimat etdi. İştirakçı universitet və şirkətlərin nümayəndələri də qısa təqdimat keçirdilər.

Görüşdə akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev iştirak edirdi.

Tədbir əməkdaşlıq məsələlərinin müzakirəsi ilə sona çatdı.

## MEETING WITH UNIVERSITIES AND EDUCATION COMPANIES FROM POLAND, IRAN, AND IRAQ

On April 22, Khazar University hosted the representatives of universities and education companies from Poland, Iran, and Iraq at its Neftchilar campus. The event was organized by Akademi Group Study Abroad company in cooperation with the International Affairs Office and the PR and Media Center.

Participants of the event included Dr. Hassan Niknafs, President; Prof. Mahammad Nuriyev, Vice-President for Academic Affairs; and Gunay Farzaliyeva, Assistant to the Director of the International Affairs Office. Guests included representatives of the Warsaw School of Economics, Rony Company for Educational Services, Universal Education, Light Education Group, and Oskar Education and Consulting.

Dr. Hassan Niknafs, the President of Khazar University, opened the event with a welcome speech and briefly introduced Khazar University to the guests. Gunay Farzaliyeva, Assistant to the Director of the International Affairs Office, gave a presentation about Khazar University, its schools and programs, its rankings among universities inside and outside of Azerbaijan, and its international partnerships and cooperation with other universities around the world. Representatives from each of the participating universities and companies also delivered presentations.

The event concluded with a discussion of possible future cooperation.



## AZƏRBAYCAN ŞƏHİD MƏDƏNİ UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 27-də iki universitet arasında əməkdaşlığı müzakirə etmək üçün dəvət olunmuş Azərbaycan Şəhid Mədəni Universitetinin (İran İslam Respublikası) nümayəndə heyəti Xəzər Universitetində oldu.

Azərbaycan Şəhid Mədəni Universitetinin nümayəndə heyətinə rektor Dr. Hasan Valizadeh, Tədqiqat üzrə prorektor Dr. Ali Ajami və Təhsil üzrə prorektor Dr. Mansour İmanpour daxil idilər. Azərbaycan Şəhid Mədəni Universiteti İranda Təbriz yaxınlığında yerləşən dövlət universitetidir. 7 fakültəsi olan universitet bakalavr, magistr və doktorantura səviyyələri üzrə təhsil verir.

Nümayəndə heyəti ilə həm Xəzər Universitetində, həm də "Dünya" məktəbində görüşlər keçirildi. Təbrizdən olan qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin rektoru Dr. Hassan Niknafs ilə görüşdülər.

Universitetin rəhbərliyi, fakültə dekanları, akademik və administrativ şöbələrin rəhbərləri üçün Azərbaycan Şəhid Mədəni Universiteti haqqında təqdimat keçirildi. Nümayəndə heyəti Xəzər Universitetində təhsil alan iranlı tələbələrlə də görüşdü.

Sonra nümayəndə heyəti üçün mədəni proqram təşkil olundu.

## DELEGATION FROM AZARBAIJAN SHAHID MADANI UNIVERSITY VISITS KHAZAR UNIVERSITY

On April 27, a delegation from Azarbaijan Shahid Madani University was invited by Khazar University to Azerbaijan to discuss cooperation between the two universities.

The delegation from Azarbaijan Shahid Madani University included Professor Hasan Valizadeh, Rector; Dr. Ali Ajami, Vice-Rector for Research; and Dr. Mansour Imanpour, Vice-Rector for Education. Azarbaijan Shahid Madani University is a public university located near Tabriz, Iran. It has seven schools and provides education at bachelor, master, and doctoral levels.

Khazar University hosted the delegation during the first day of the visit, April 27. A series of meetings were held at both Khazar University and its affiliate, Dunya School. The guests from Tabriz met with Professor Hamlet Isaxanli, the Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, as well as with Dr. Hassan Niknafs, President of Khazar University.

A presentation about Azarbaijan Shahid Madani University was delivered for the university management, deans of the schools, and heads of academic and administrative departments. Members of the delegation also met with Iranian students who study at Khazar University.

A cultural program was organized for the members of the delegation in the evening.



## "POTENSİAL MƏKTƏB DİREKTORLARINA MƏKTƏBİN İDARƏ EDİLMƏSİ ÜZRƏ TƏLİM KURSU"NUN 3-CÜ BURAXILIŞI

Aprelin 28-də Xəzər Universitetinin "Neftçilər" kampusunun "Mərmər" zalında kursu bitirən 64 məzuna sertifikat təqdim olunması münasibətilə mərasim keçirildi. Mərasimi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, kursun əhəmiyyətindən danışdı, Xəzər Universitetinin ümumitəhsil sisteminə və gələcək direktorlara daima dəstəkverməyə hazır olduğunu qeyd etdi və məzunlara bu məsuliyyətli işdə uğurlar arzuladı.







Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs isə çıxışında təhsil sahəsində islahatların zəruriliyindən danışdı. Sonra sertifikatların təqdim olunması mərasimi başlandı. Sertifikatları professor Hamlet İsaxanlı, Dr. Hassan Niknafs, universitetin prorektorları – Məhəmməd Nuriyev və İsaxan İsaxanlı təqdim etdilər. Sertifikatların təqdim olunması zamanı universitetin Multimedia mərkəzinin kursda təhsil prosesinə aid hazırladığı slayd-şou nümayiş etdirildi.







Kursu bitirənlər adından Nizami Fətəliyev, Alı Məmmədov və Aynurə Müseyibli çıxış edərək, layihə rəhbəri – Xəzər Universiteti İnkişaf mərkəzinin direktoru Raziyə İsayevaya, layihə koordinatoru – Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Elza Səmədovaya və layihənin digər təşkilatçılarına minnətdarlıqlarını bildirdilər. Aynurə Müseyibli "Xəzər"ə həsr etdiyi şeiri oxudu:



**Xəzər qucaq açdı gəlişimizə,**
**Gözəl xatirələr yaşatdı bizə.**
**Görüb gözəlliyi sevindi ürək,**
**Hamlet bəy, biz sizə 100 yaşa deyək.**

**Bütün dəyərlərin qanunluğunun,**
**Akif müəllim dedi hüquqdur sonu.**
**Ömrümüz yazılsın hər ötən ana,**
**Təşəkkür söyləyək Elza xanıma.**

**Sağlam gələcəyə qurbandır canım,**
**Haqqını halal et, Raziyə xanım.**
**Hərəmiz yad idik, burada qaldıq,**
**"Xəzər"də görüşüb mehriban olduq.**

**Bu gün təltif üçün durduq yan-yana**
**Dostlar, layiq olaq Azərbaycana.**
**Bizləri gozləyir zirvələr hələ,**
**İlhamla gedirik biz gələcəyə.**







Sonda tədbir iştirakçılarına Xəzər Universiteti Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı təqdim olundu.

Bu kursla Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəblərin idarə edilməsi üzrə apardığı islahatları dəstəkləmək məqsədilə Xəzər Universitetində həyata keçirilən potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə layihənin 3-cü turu başa çatdı.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir.

Üç aylıq kursun məşğələlərində iştirakçıların təqdimatları olmuş, müzakirələr və söhbətlər aparılmışdır. Onlar kursun çox əhəmiyyətli olduğunu, əldə etdikləri nəzəri və təcrübi bilikləri öz işlərində tətbiq edəcəklərini bildirmişlər.




## HAMLET İSAXANLI BEYNƏLXALQ SİMPOZİUMDA ÇIXIŞ ETDİ

Aprelin 29-dan mayın 1-dək Gəncə şəhərində Azərbaycan Texnologiya Universitetinin təşkilatçılığı ilə "Boloniya təhsil prosesində universitet-sənaye əlaqələrinin müasir problemləri" mövzusunda beynəlxalq simpozium keçirildi.

Aprelin 30-dakı plenar iclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı universitet-sənaye münasibətlərinin inkişaf tarixi, Avropa və ABŞ-da universitetlərin missiyaları və texnoparklar, universitet-sənaye münasibətlərinin uğur qazanmasında universitet, sənaye müəssisələri və dövlət siyasətinin rolu haqqında məruzə etdi. H.İsaxanlı çıxışında Azərbaycan və onu əhatə edən bölgədə universitet-sənaye münasibətləri və texnoparkların problemləri haqqında da danışdı və Xəzər Universitetinin təcrübəsindən misallar göstərdi.

Tədbir haqqında bu linklər vasitəsilə əlavə məlumat əldə etmək olar:

*http://publika.az/p/134756;*

*http://az.trend.az/azerbaijan/society/2528222.html*

## HAMLET ISAXANLI MAKES PRESENTATION AT INTERNATIONAL SYMPOSIUM

On April 29-May 1, Azerbaijan Technology University coordinated an international symposium on "University-Industry Relations in the Bologna Process" at the Ramada Hotel in Ganja.

On April 30 at the plenary session, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a lecture about the history of the development of university-industry relations, missions of European and American universities and technoparks, and the role of universities, industries and state policy in the success of university-industry relations. He also spoke about the issue of technoparks and university-industry relations in Azerbaijan and the surrounding region, drawing examples from the experience of Khazar University.

The event was covered by several media agencies. Further information is available at the following links:

*http://publika.az/p/134756;*

*http://az.trend.az/azerbaijan/society/2528222.html.*

## "ELM ÜÇBUCAĞI"NDA AVROPADA UNİVERSİTETLƏRİN İNKİŞAF TARİXİNDƏN SÖHBƏT AÇILDI

Mayın 1-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş "Paris universiteti və Avropada universitetlərin inkişaf tarixi" mövzusuna həsr olunmuşdu.

Verilişdə universitetin əməkdaşları da dinləyici qismində iştirak edirdilər.

## EUROPEAN UNIVERSITY HISTORY LECTURE ON TRIANGLE OF SCIENCE SHOW

On May 1, the "Elm üçbucağı" (Triangle of Science) program by Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was broadcast on Public TV. The theme of the lecture during the broadcast was "Development History of Paris University and European Universities." Khazar University faculty and staff members also participated as audience members during the show.

## SƏHƏND TEXNOLOGİYA UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR" DƏ



Mayın 11- 12-də iki universitet arasında əməkdaşlığı müzakirə etmək üçün dəvət edilmiş Səhənd Texnologiya Universitetinin (İran İslam Respublikası) nümayəndə heyəti Xəzər Universitetində oldu. Nümayəndə heyətinə rektor Dr. Rasoul Azari Khosroshahi, İctimai və beynəlxalq əlaqələr direktoru Dr. Kazem Ghanbari, Tədqiqat üzrə prorektor Dr. Syamak Hossein Nedjad, Qaz və Neft İnstitutunun direktoru Dr. Seyed Alireza Tabatabaeinezhad daxil idilər.

Səfər çərçivəsində Xəzər Universitetində və "Dünya" məktəbində görüşlər keçirildi. Qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin rektoru Dr. Hassan Niknafs və Xəzər Universitetində hazırda təhsil alan iranlı tələbələrlə görüşdülər.

Universitetin rəhbərliyi, fakültə dekanları, akademik və administrativ şöbələrin rəhbərləri üçün Səhənd Texnologiya Universiteti haqqında ətraflı təqdimat keçirildi.



## DELEGATION FROM SAHAND UNIVERSITY OF TECHNOLOGY VISITS KHAZAR UNIVERSITY

On May 11-12, a delegation from Sahand University of Technology was invited by Khazar University to Azerbaijan to discuss cooperation between the two universities.

Within the framework of the visit, a series of meetings was held at Khazar University and its affiliate, Dunya School. The guests met with Professor Hamlet Isaxanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, as well as with Dr. Hassan Niknafs, President of Khazar University. Members of the delegation also met with Iranian students currently studying at Khazar University.

A presentation about Sahand University of Technology was delivered for the university management, deans of the schools, and heads of academic and administrative departments.

Members of the delegation included Dr. Rasoul Azari Khosroshahi, Rector; Dr. Kazem Ghanbari, Director of Public and International Relations; Dr. Syamak Hossein Nedjad, Vice-Rector in Research; and Dr. Seyed Alireza Tabatabaeinezhad, Director of Institute of Gas and Oil.









Görüşdə Lyudmila Sotova rəhbərlik etdiyi mərkəzin fəaliyyəti barədə təqdimat etdi. Sonra Eldar Şəhgəldiyev doktoranturada təhsilin keyfiyyətinin yüksəldilməsinə dair tövsiyələrini verdi.

Görüş nəticəsində gələcəkdə daha sıx əməkdaşlıq etmək və növbəti görüşlərin keçirilməsi qərara alındı.

Qeyd edək ki, Tvinninq layihəsinin ümumi məqsədi Avropa ali təhsil məkanına inteqrasiya etməklə Azərbaycanda ali təhsil sisteminin, Boloniya prosesinə aid siyasətin daha da inkişaf etdirilməsi, Avropa ali təhsil məkanının məqsədlərinin və əsas alətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyinin və digər müvafiq qurumların institusional imkanlarının artırılmasıdır.

# TVİNNİNQ LAYİHƏSİNİN MÜŞAVİRİ İLƏ GÖRÜŞ

Mayın 4-də Xəzər Universitetində "Ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə dəstək göstərilməsi" Tvinninq layihəsinin müşaviri Reijo Aholainen ilə görüş keçirildi. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru Dr. Hassan Niknafs, Magistratura, doktorantura və elmi işlər bölməsinin direktoru Eldar Şəhgəldiyev, Keyfiyyətin təminatı mərkəzinin rəhbəri Lyudmila Sotova, İnkişaf üzrə direktor Raziyə İsayeva və Biologiya departamentinin müdiri İradə Xəlilova iştirak edirdilər. Görüşün əsas məqsədi Azərbaycanda doktorantura təhsilinin təkmilləşdirilməsi və yaxşılaşdırılması məsələsini müzakirə etmək və tövsiyələr vermək idi.





# MEETING WITH ADVISOR TO TWINNING PROJECT

On May 4, a meeting was held at Khazar University with Reijo Aholainen, Advisor for the "Support to the Ministry of Education for further adherence of the higher education system to the European Higher Education Area" Twinning Project. Participants in the meeting included Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Dr. Hasan Niknafs, President of the University; Raziya Isayeva, Development Director; and Dr. Irada Khalilova, Head of the Biology Department. The main objective of the meeting was to discuss the further development of doctoral studies in Azerbaijan and to make recommendations.

During the meeting, Lyudmila Sotova, Director of the Quality Assurance Center, made a presentation about the center activities. Then Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, made recommendations for increasing the quality of doctoral education.

As a result of the meeting, a decision was made to develop a close working relationship with the Twinning project and to hold further meetings for discussion.

The main goals of the Twinning project are to further develop the higher education system in Azerbaijan by means of integration into the European Higher Education Area, to develop policies about the Bologna System, and to increase the capacity of the Ministry of Education and similar institutions of the Azerbaijan Republic to implement the objectives and tools of the European Higher Education Area.





THOMSON REUTERS

## "THOMSON REUTERS"- İN ƏMƏKDAŞLARI İLƏ MÜZAKİRƏ

Mayın 4-də Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin təşkilatçılığı ilə "Thomson Reuters" təşkilatının Moskva filialının Təlim proqramları üzrə bölməsinin rəhbəri Valentin Bogorov və "Thomson Reuters"-in Azərbaycandan olan əməkdaşı Aygün Babazadənin universitetin əməkdaşları ilə görüşü keçirildi. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru Dr. Hassan Niknafs, Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev, İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova, fakültə dekanları və departament müdirləri iştirak edirdilər.

Valentin Bogorov "Thomson Reuters" təşkilatı haqqında təqdimat etdi və Xəzər Universitetinin bu təşkilatın məlumat bazasına qoşulma məsələləri müzakirə olundu.

Görüşdə, həmçinin, gələcək əməkdaşlıq məsələləri müzakirə edildi və Valentin Bogorov iştirakçıların suallarını cavablandırdı.






## MEETING WITH THOMPSON REUTERS REPRESENTATIVES

On May 4, with the organization of the Division of Graduate Studies and Research at Khazar University, Valentin Bogorov, the Customer Education Team Leader of Thompson Reuters Moscow branch, and Aygun Babazade, Thompson Reuters representative, held a meeting with Khazar University research staff. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Dr. Hasan Niknafs, President of the University; Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research; Raziya Isayeva, Development Director; Lyudmila Sotova, Director of the Quality Assurance Center; deans of schools and department chairs participated in the meeting.

Valentin Bogorov made a presentation about Thompson Reuters and discussed Khazar University's access to the Thompson Reuters database.

Future collaboration between Khazar University and Thompson Reuters was discussed in the meeting and Valentin Bogorov answered participants' questions.

THOMSON REUTERS



# AMBASSADOR OF PAKISTAN VISITS KHAZAR UNIVERSITY







On May 11 at Khazar University's Downtown Campus, a meeting was held with His Excellency Mr. Khalid Usman Qaiser, Extraordinary and Plenipotentiary Ambassador of Pakistan to Azerbaijan.

The meeting was hosted by the following first-year students of Khazar University School of Economics and Management: Allahverdi Ismayilli, Nigar Quliyeva, Jala Huseynova and Fatima Ahmedova.

Students from different schools also participated. As the theme of the talk was Azerbaijan-Pakistan brotherhood, the undergraduates were keen to discuss economic, political and cultural relations between Azerbaijan and Pakistan as well as to hear the Ambassador's point of view on the future resolution of the Nagorno-Karabakh conflict.

According to the speech made by the Ambassador, Pakistan supports Azerbaijani territorial integrity and is fully ready for future military cooperation as well. He also stated that the military cooperation between these two countries has been long-lived and sound.

The Ambassador warmly answered students' questions and wished them good luck in their future education and careers.







# “DÜNYA” ŞAGİRDLƏRİ “XƏZƏR”DƏ



Mayın 12-də Xəzər Universitetində “Dünya” məktəbinin X-XI sinif şagirdləri ilə görüş keçirildi. Görüşü universitetin rektoru Dr. Hassan Niknafs açaraq, Xəzər Universiteti və universitetdəki qurumlar haqqında geniş məlumat verdi. İqtisadiyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Himanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov çıxış edərək, fakültədə olan ixtisaslar haqqında məlumat verdilər. Pakistan, Zimbabve, Yəmən və Kamerundan olan xarici tələbələr Xəzər Universiteti və Azərbaycan haqqında şagirdlərə xoş sözlər söylədilər və onların suallarını cavablandırdılar.







Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Dünya" məktəbinin şagirdləri ilə görüşdən məmnun olduğunu bildirdi və onlara qarşıdakı seçimlərində uğurlar arzuladı. İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli "Dünya" məktəbinin şagirdlərini universitetin laboratoriyaları, Kitabxana-informasiya mərkəzi, Psixologiya mərkəzi, İnşaat mühəndisliyi laboratoriyası ilə tanış etdi.

Sonra universitetin yeməkxanasında çay süfrəsi ətrafında şagirdlərlə maraqlı söhbət oldu. "Dünya" məktəbinin müəllimləri Nilufər Əliyeva, Xumar Ağayeva və şagirdlər universitetlə yaxından tanış olduqları üçün universitetin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.







## DUNYA SCHOOL VISITS KHAZAR UNIVERSITY

On May 12, 10th and 11th grade pupils from Khazar University's affiliate Dunya School visited the university for a meeting. Opening the event, Dr. Hassan Niknafs, President of the university, spoke about the structure of Khazar University. Deans also made presentations including Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; and Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences. International students from Pakistan, Zimbabwe, Yemen and Cameroon also spoke about their impressions of Khazar University and Azerbaijan. They answered pupils' questions.





Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, said he was glad to meet with the Dunya pupils and wished them success in their university decisions. Alovsat Amirbeyli, Director for Public Relations and Media, gave the pupils a tour of the Khazar University laboratories, Library-Information Center, Psychology Center, and Civil Engineering Laboratory. Dunya School teachers Nilufar Aliyeva and Khumar Aghayeva thanked the Khazar University administration for the tour and meeting.








# 110 illiyi

**"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU**

Aprelin 20-də AMEA Nizami adına ədəbiyyat İnstitutunun Elektron akt zalında "Molla Nəsrəddin" jurnalının 110 illiyinə həsr olunan "Sizi deyib gəlmişəm..." mövzusunda elmi konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə foyedə təşkil olunmuş "Molla Nəsrəddin-110" sərgisinə baxıblar.

Tədbirdə AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli "Molla Nəsrəddin" jurnalının fəaliyyətindən və şərəfli tarixindən söz açıb. Azərbaycanın ilk satirik jurnalı olan "Molla Nəsrəddin"in birinci nömrəsinin 1906-ci il aprelin 7-də Tiflisdə çapdan çıxdığını qeyd edən akademik İsa Həbibbəyli böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin müəllifliyi və redaktorluğu ilə jurnalın 25 ildə 748 nömrəsi işıq üzü gördüyünü diqqətə çatdırıb. Akademik bildirib ki, "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik düşüncəli insanlarını öz ətrafında toplaya bilib. Akademik İsa Həbibbəyli vurğulayıb ki, Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə mollanəsrəddinçi şairlər Yaxın və Orta Şərqdə "Molla Nəsrəddin ədəbi məktəbi"ni yaradıb, milli istiqlal ideyaları və realist-satirik ədəbiyyatın inkişafı uğrunda mübarizənin möhkəm ideya-siyasi cəbhəsini formalaşdırıblar.

Konfransda AMEA Alimlər Evinin direktoru, tarix üzrə fəlsəfə doktoru Nuridə Quliyeva çıxış edib. Filologiya elmləri doktoru Asif Rüstəmlinin "Molla Nəsrəddin" jurnalının Təbriz dövrü", Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktoru Pərixanım Mahmudovanın "Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı", filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayevanın "Molla Nəsrəddin" jurnalında ədəbiyyat məsələləri" və digər mövzularda məruzələr dinlənilib.

# ƏDƏBİYYAT İNSTİTUTUNDA OLJAS SÜLEYMENOVA FƏXRİ DOKTOR DİPLOMU TƏQDİM OLUNUB






Aprelin 25-də AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında görkəmli Qazax yazıçısı və ictimai xadim Oljas Süleymenovla elmi ictimaiyyətin görüşü olub.

Tədbir iştirakçıları əvvəlcə AMEA-nın Əsas binasının foyesində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin büstünü ziyarət ediblər.

Azərbaycan və Qazaxıstan elmi ictimaiyyətinin nümayəndələri Akademiyanın elmi-tədqiqat institutlarının nailiyyətlərini əks etdirən Elm sərgisi ilə tanış olublar.

Tədbiri AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq görkəmli qazax yazıçısı Oljas Süleymenovun 80 illik yubileyinin qazax xalqının nümayəndələri ilə birlikdə təntənəli surətdə qeyd edilməsini əlamətdar hadisə kimi səciyyələndirib, ədibin elmi və ədəbi yaradıcılığından ətraflı bəhs edib. Görkəmli yazıçının əsərlərinin Azərbaycanda da sevilə-sevilə oxunduğunu diqqətə çatdıran akademik İsa Həbibbəyli Oljas Süleymenovun əsərlərinin Azərbaycan dilində dəfələrlə böyük tirajla çap olunduğunu qeyd edib. Vurğulayıb ki, Oljas Süleymenovun Qazax ədəbiyyatının və ictimai fikrinin qiymətli nümunələri olan əsərləri dünya ədəbiyyatını, türk xalqlarının ədəbiyyatını zənginləşdirir.

Akademik İsa Həbibbəyli Nizami adına Ədəbiyyat İnstitutunun Elmi şurasının 22 aprel 2016-ci il tarixli qərarı ilə görkəmli qazax yazıçısı və ictimai xadim Oljas Omaroviç Süleymenova Azərbaycanda müstəqillik ideallarının möhkəmləndirilməsində, ədəbiyyatın və ictimai fikrin inkişafında görkəmli xidmətlərinə görə fəxri doktor elmi dərəcəsi verildiyini açıqlayıb. Bu münasibətlə institut rəhbəri "Fəxri doktor" diplomu və xüsusi hazırlanmış mantiyanı Oljas Süleymenova təqdim edib.

Sonra Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev, Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya elmləri doktoru Aida Feyzullayeva, Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universitetinin rektoru, akademik Qalımqair Mutanov, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Atatürk Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Nizami Cəfərov, filologiya elmləri doktoru Şirindil Alışanlı, filologiya elmləri doktoru Nizami Tağısoy çıxış edərək, Oljas Süleymenovun zəngin yaradıcılığının müxtəlif istiqamətləri barədə ətraflı danışıblar.

Sonda görkəmli qazax mütəfəkkiri Oljas Süleymenov çıxış edərək səmimi qarşılandığına, ona göstərilən diqqət və qayğıya, "Fəxri doktor" elmi dərəcəsinə görə Milli Elmlər Akademiyasının rəhbərliyinə dərin minnətdarlığını bildirib.

Tədbirdə qarşılıqlı olaraq xatirə hədiyyələri, kitablar təqdim edilib.

Görüşdə AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev, səfirlik əməkdaşları, elmi ictimaiyyət və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbir boyu böyük qazax şairi Oljas Süleymenovun həyat yolunu əks etdirən video və fotoslaydlar nümayiş etdirilib.








## KİTAB TƏQDİMATI:



Aprelin 26-da Xəzər Universitetində görkəmli şair, nasir, publisist, tarix tədqiqatçısı Teyyub Qurbanın tərtib etdiyi "На имя Багирова, за подписью Багирова" ("Bağırovun adına, Bağırovun imzası ilə") adlı kitabın təqdimat mərasimi olmuşdur. Mərasimdə ölkənin müxtəlif ali təhsil və elm ocaqlarında çalışan alim və mütəxəssislər, Xəzər Universitetinin əməkdaşları iştirak edirdilər.

Tədbirin aparıcısı – Azərbaycan Rüspublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədova Teyyub Qurbanın 20 il ərzində Mir Cəfər Bağırovun fəaliyyətini arxiv sənədləri əsasında tədqiq etdiyini, bunun nəticəsi olaraq üzərində çalışdığı çoxcildliyin "Düşmənlərindən güclü şəxsiyyət" adı ilə artıq üç cildinin çapdan çıxdığını və bir neçə dəfə təkrar nəşr olunduğunu, oxuculara təqdim edilən kitabın isə fərqli nəşr olduğunu iştirakçıların nəzərinə çatdırdı.






Kitabın redaktoru və ön sözün müəllifi, əməkdar jurnalist Əlirza Balayev çıxışında bildirdi ki, təqdimatı keçirilən kitab Teyyub Qurbanın öz əsərlərində istifadə etdiyi arxiv sənədlərindən ibarətdir və oxuculara heç bir çərh və izahat olmadan təqdim edilir ki, bu da hər kəsə tanış olduğu sənədlər əsasında öz rəyini müəyyənləşdirmək imkanı verir.

Mərasimdə kitabın hazırlanması və çapının təşəbbüskarı Faiq Həbibov, Mir Cəfər Bağırov nəslinin nümayəndəsi Məmmədtağı Bağırov, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin şöbə müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru Lalə Hüseynova, Xəzər Universiteti Avrasiya və Orta şərq Araşdırmaları mərkəzinin direktoru, AMEA akdemik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri Fərda Əsədov, AMEA A. A. Bakıxanov adınaTarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri üzrə fəlsəfə doktoru Əzizağa Ələkbərov, Azərbaycanın sabiq baş naziri Rəhim Hüseynov, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, əməkdar incəsənət xadimi Sərdar Fərəcov və digərləri çıxış edərək, Teyyub Qurbanın Mir Cəfər Bağırova həsr olunmuş əsərləri haqqında fikir və mülahizələrini söyləmişlər.

Sonda aparıcı F. Əhmədova təqdimat mərasiminin təşkilinə görə Xəzər Universitetinin rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirmişdir.

*Vesti.az xəbər saytı tədbir haqqında geniş xəbər yaymışdır*: http://www.vesti.az/news/290679#ad-image-5





## OLAYLAR.AZ SAYTINDA TƏLƏBƏMİZİN MƏQALƏSİ

Aprelin 27-də Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsində psixologiya ixtisası üzrə təhsil alan tələbəsi Nərmin Quliyevanın ***olaylar.az*** saytında "Öz saçını yolanların xəstəliyi" başlıqlı yazısı yayımlanmışdır.

Yazını bu link vasitəsilə oxumaq olar:

*http://www.olaylar.az/news/social/173789/*





### KARYERA MƏRKƏZİ NÖVBƏTİ LAYİHƏNİ HƏYATA KEÇİRDİ

Aprelin 27-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə Gənclərin liderlik potensialının artırılması layihəsi həyata keçirildi. Layihədə "Global Citizen" – xaricdə könüllülük proqramına qoşulmanın yolları haqda geniş məlumat verildi.

Sonda tələbələri maraqlandıran suallar cavablandırıldı.

### LATEST CAREER CENTER PROJECT

On April 27, a project entitled "Activating the leadership potential of young people – AEISEC" was implemented with the coordination of the Khazar University Career Center. The project provided students with detailed information about how to join the Global Citizen program to volunteer abroad.

At the end of the event, students' questions were answered.

### XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNİN KİTABI NƏŞR OLUNUB

Aprel ayında Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi dosent Elmira Məmmədova - Kekeçin "Devriye, Yaşname, Elifname"adlı kitabı "Türkiyə Alim Kitabları" nəşriyyatında (Almaniya) çapdan çıxmışdır.

Kitab ***Amazon.com***-da satışdadır.




### KHAZAR UNIVERSITY INSTRUCTOR PUBLISHES BOOK

On April 19, a book entitled "Devriye, Yaşname, Elifname" by Associate Professor Elmira Mammadova-Kekechin, instructor of the Department of Azerbaijani Language and Literature at Khazar University, was published in Germany by Turkish Scholar Books.

The book is being sold on ***Amazon.com***.





# TƏLƏBƏLƏR ELEKTROMOBİL HAZIRLADILAR



Aprelin 27-də Xəzər Universitetində Elektronika və telekomunikasiya departamentinin dəstəyi ilə tələbələr arasında günəş elektromobili layihəsinin təqdimatı oldu. Mühəndislik və tətbiqi elmlər fakültəsinin elektronika və mexanika ixtisasları üzrə təhsil alan bir qrup tələbə komanda şəklində hazırladıqları günəş elektromobillərini təqdim etdilər. Ümumilikdə, 10 tələbədən ibarət 5 komanda yarışa qatılmışdı. Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimlərindən ibarət münsiflərin ümumi rəyi ilə qalib komandalar müəyyən olundu.





## "XƏZƏR" HEYDƏR ƏLİYEV ADINA LİSEYDƏ

Aprelin 28-də Heydər Əliyev adına liseydə 11-ci sinif şagirdləri və liseyin kollektivi ilə Xəzər Universiteti rəhbərliyinin görüşü keçirildi. Liseyin direktoru Ümid Babaşov lisey haqqında qısa məlumat verdi və salona toplaşan şagirdlərə Xəzər Universiteti rəhbərliyini təqdim etdi.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs, Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, universitetin tələbələri Ülviyyə Qarayeva, Nurlan Əliyev, Usama Ahmet Khand (Pakistan), Tendai Samantha Shereni (Zimbabve), Yanik Akbor (Kamerun) və digərləri görüşdə iştirak edirdilər. Universitetin rəhbərliyi və tələbələri şagirdləri maraqlandıran çoxsaylı sualları cavablandırdılar.

Liseyin müdiri Ümid Babaşov maraqlı görüş üçün məktəbin kollektivi adından universitet rəhbərliyinə təşəkkür etdi.



# MƏZUNLARDAN İBARƏT İŞÇİ QRUPUN YIĞINCAĞI



Aprelin 28-də Xəzər Universitetində məzunlardan ibarət işçi qrupun növbəti yığıncağı keçirildi. Yığıncaqda Xəzər Universiteti Məzunlar Assosiasiyasının Əsasnaməsi və assosiasiyanın təsis konfransının təşkili ilə bağlı məsələlər müzakirə olundu.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs yığıncaq iştirakçılarını salamladı və gündəlikdə duran məsələlərlə bağlı öz fikirlərini bildirdi. Müzakirələrdə fəal iştirak edən məzunlar əsasnamə ilə bağlı fikir və təkliflərini səsləndirdilər.

Təsis konfransının 2016-cı il iyunun birinci ongünlüyündə keçirilməsi qərara alındı və bu məqsədlə Təşkilat Komitəsi yaradıldı. Xəzər Universiteti Məzunlarla iş şöbəsinin müdiri Baba Bayramlı Təşkilat Komitəsinin sədri, məzunlardan Nigar Kərimova və Şəhriyar Məmmədov sədrin müavinləri, Nigar Cabbarova komitənin katibi seçildilər.







# TÜRKİYƏLİ MAGİSTRANT TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNDƏ

Aprelin 28-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentində Türkiyənin Çankırı Karatekin Universitetinin magistrantı Sümeyra Türklə elmi görüş keçirildi. Görüşün mövzusu "Orta əsrlərdə türk-ərəb əlaqələri tarixi" idi.

Görüşdə departamentin müdiri dosent Roza Arazova, departamentin müəllimi dosent Yeganə Çağlayan, universitetin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin direktoru fəlsəfə doktoru Fərda Əsədov iştirak edirdilər. Türk-ərəb əlaqələri tarixi problemi üzrə əhəmiyyətli araşdırmalar, o cümlədən, Azərbaycan tarixçilərinin araşdırmaları haqqında müzakirələr aparıldı. Görüşdə, həmçinin, Sümeyra Türkə elmi araşdırması üçün elmi məsləhətlər də verildi.

# ƏMƏKDAŞIMIZ ADA-DA TƏLİM KEÇİRDİ

Aprelin 28-də ADA Universitetində *Wowoman Tech Tech Xanım və "Femmes Digitales"* ilə Azərbayca qadınlarının birgə əməkdaşlığı sayəsində mobil tətbiqetmələrin hazırlanması üzrə təlim təşkil edilmişdir. Təlimçi Xəzər Universitetinin əməkdaşı, Bakı Britaniya məktəbinin İKT təlimatçısı və *Wowoman Tech Tech Xanım* layihəsinin meneceri Günay Kazımzadə idi.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə oxumaq olar:

*http://technimum.com/blog/6040.html*




# ƏMƏKDAŞLARIMIZ GƏNC TƏDQİQATÇILARIN BEYNƏLXALQ KONFRANSINDA



Aprelin 29-da Humanitar və sosial elmlər fakültəsinin baş laborantı Validə Kərimova (Dilşünaslıq ixtisası üzrə doktorant) və Lamiyə Hacılı (Təhsildə qiymətləndirmə və monitorinq ixtisası üzrə magistrant) Qafqaz Universitetində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ilinə həsr olunmuş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransında iştirak etdilər.

Konfransa Azərbaycan, Türkiyə, ABŞ, Böyük Britaniya, Rusiya, Çexiya, Avstriya və s. kimi ölkələrin gənc tədqiqatçıları və elm adamları öz məqalələri ilə müraciət etmişdilər. Qeyd etmək lazımdır ki, 1400-ə yaxın məqalə arasından 4 dildə – Azərbaycan, türk, rus, ingilis dillərində 1100-ü qəbul edilmişdi. Əsas hədəf müxtəlif ölkələrin elmi tədqiqatçılarını bir araya gətirməklə onlar arasında əlaqələrin qurulmasını təmin etməkdən ibarət idi.

Konfransda Validə Kərimova "Metaforanın linqvistik xarakteri" (ingiliscə), Lamiyə Hacılı isə "Ənənəvi və müasir anlamda təhsil" mövzusunda çıxış etdilər.

Konfransın sonunda elmi tədqiqatçılara məqalələrin dərc olunduğu iki cildli toplu və sertifikat təqdim olundu.

# IMAGINE TEAM OF KHAZAR UNIVERSITY CHALLENGES EXTREMISM IN A GLOBAL COMPETITION





The Imagine Team of Khazar University, founded in February 2016, is composed of students of the School of Economics and Management of Khazar University. The team was formed to participate in the P2P: Challenging Extremism program, a global university youth initiative and international competition supported by the U.S. Department of State. As part of the competition, the team must design and implement a digital marketing campaign against extremism.

The team is led by Ms. Sana Imran, marketing instructor, and includes nine third-year students:

- Alihuseyn Agayev (Management)
- Dinara Katibi (Accounting and Auditing)
- Erlan Ismailov (Finance)
- Kamilla Lyatifova (Marketing)
- Nadir Gadirli (Finance)
- Narmin Abbasova (Accounting and Auditing)
- Narmin Zari (Business Administration)
- Suleyman Yagizarov (Finance)
- Ulviyya Azizova (Finance)

The name of the team comes from their wish to see the world free from extremism and violence. Imagine Team promotional materials read, "Imagine a world free of violence. Imagine a world where everyone is treated equally. Imagine a world where there are no boundaries of nationalities, races, religions or sects. Let's no longer accept the world we live in and use such excuses as 'it is just the way things are' to justify inaction. Violence is and can never be 'just the way things are.'"

The Imagine Team calls everyone to join them in their fight against extremism. "The Imagine Team is all set to hold the hand of every child, to protect him / her from the extremist world & to promise a better and brighter tomorrow. Are you also ready?!?"

## Activities Carried out by Imagine Team

The Imagine Team carried out numerous activities as part of their marketing campaign, including:



**April 26, 2016:**

**Session For High-school Students and Workshop for Parents at Dunya School**



This session for students included interactive games and activities that allowed them to express themselves while learning about various forms of extremism, tolerance, cultural differences, and other important topics. "The Old Man and Tulips" story narrated by the Imagine Team showed the youngsters how even a small change could do wonders. The story also emphasized the importance of mutual understanding, kindness, and giving each other compliments. The team also informed the students about a photo contest carried out within the marketing campaign and encouraged the students to participate in it.



The workshop with parents consisted of screening a video made by the team which focuses on how parents can affect the futures of their children and their development as an individual. The video was followed by a discussion with the parents. Imagine Team left the students and the parents with small memorable souvenirs.



The event at Dunya School school also included a meeting with the co-founder of the school, Ms. Naila Isayeva, and the Director of the School, Ms. Marufa Madatli, who stressed the importance of the activities carried out by the team and expressed their appreciation of their efforts. A small souvenir, an Imagine mug, was presented to the co-founder of Dunya School.



## April 27, 2016:

## Workshop at Zakalar Lyceum



The Imagine Team shared their message in the form of a workshop to a target audience of 65 students. The enthusiasm and the participation of the students was commendable. Numerous interactive activities were planned by the team to keep the audience fully absorbed. Imagine Team souvenirs were also distributed amongst the children.

## April 27, 2016:

## Promotional Event at Park Bulvar



The Imagine Team of Khazar University held a promotional campaign at one of the busiest malls of Baku – Park Bulvar. The promotional activity caught the attention of many visitors, both local and international.

The main goal of the promotional event at the mall was to raise public awareness about the negative impacts of extremism and provide information about the Team's efforts in fighting it. The Team distributed flyers for their campaign among mall visitors and informed them about the photo contest carried out by the team as part of their marketing strategy.

The main goal of the photo contest, which is being staged on a social platform, is to select a picture taken with an umbrella (the symbol of the Imagine Team) that receives the most votes from the audience. Shoppers delightfully posed with an umbrella and the members of the team. A lucky draw contest was also held at the mall. The winners of the contest were awarded with Imagine Team Mugs.





imagine

Protect our future for better tomorrows..

## April 29, 2016:

## Campaign Launch – Kickoff Event in Marble Hall

The Imagine Team held a large event to introduce their marketing campaign to the university. The event took place in the Marble Hall of the Neftchilar campus and was coordinated by the Imagine team, the International Affairs Office, the School of Economics and Management, and the Office of Public Relations and Media.

Participants in the opening event included academic and administrative staff members of Khazar University as well as local and international students. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, also participated in the event.

Dr. Hasan Niknafs, President of Khazar University, opened the event and welcomed the participants. Dr. Niknafs stressed the importance of the event and wished the team good luck in the global competition. Then Professor Ingilab Ahmadov, Dean of the School of Economics and Management, spoke about the team and how participation in this program helped to enrich the marketing course the students took in the current semester.

Ms. Turan Jafarova, Director of the International Affairs Office, delivered a presentation about P2P: Challenging Extremism, the global youth initiative and international competition. She shared information about the goal of the program, the way it is carried out, and the university's participation in it. Ms. Jafarova stressed the importance of the program and the impact it could have against extremism, and she encouraged the participants to support the Imagine Team.




Ms. Sana Imran, marketing instructor and the leader of the Imagine team, informed the audience about the activities that the team carried out and thanked the university management and administration for the support provided to the team.

The members of the team made several presentations that covered the following topics: extremism, its main reasons and sources, effects of extremism on society and children, and how to fight it. A video was also prepared as part of the marketing campaign of the team. The video focused on how parents could potentially influence the choices their children would make as adults. Special attention was given to the activities carried out by the team in the frame of their marketing campaign: team members spoke about their survey carried out with parents both online and in person, presentations for schoolchildren, workshops for parents, promotional events at local malls, and other activities.

The event also included a dance performance: Erlan Ismayilov danced to the "Imagine" song by John Lennon.

"The Book of Mankind" was also launched during the event by Professor Hamlet Isaxanli. "The Book of Mankind" is a manual which includes training materials that will help parents, teachers, youth leaders, and others fight extremism through interactive activities, stories, games, etc.

The team plans to translate the manual into both Azerbaijani and Russian and disseminate it in local schools, kindergartens, and other educational institutions.



Participants of the event were awarded with memorable souvenirs – each participant was registered for a lucky draw at the door and the winners received prizes.

The team concluded the event by performing the famous "We Are the World" song. The Imagine team members thanked all participants for attending the event and encouraged them to support the team in the global competition.



**About Peer-to-Peer (P2P):**

## Challenging Extremism Program



Peer-to-Peer (P2P): Challenging Extremism Program is a global University Youth Initiative and International Competition supported by the U.S. Department of State and implemented by EdVenture Partners (EVP), a marketing firm.

This program provides enterprise and government agencies an innovative and effective way to communicate with and engage university students and educators in solving real problems through a program that provides students a genuine learning experience by producing real results.



University students become their client's agency focused on researching a defined target audience, creating a plan, and activating a customized campaign using a real budget over the course of an academic term (Source: Peer to Peer: Challenging Extremism. The Power of Student Innovation:

*http://edventurepartners.com/wordpress/wp-content/uploads/2016/03/EVP_P2P_Overview.pdf)*

For more information about the program, please visit:

Website of the U.S. Department of State:

*http://eca.state.gov/video/p2p-challenging-extremism*

Website of EdVenture Partners:

*http://edventurepartners.com/peer2peer/*



**Next Steps**

Currently, the Imagine Team of Khazar University is finalizing a report outlining the campaign and results, which will be sent to the client for evaluation. Top teams will get an opportunity to travel to the client's headquarters in Washington D.C., present their campaign, and compete for scholarship awards.

In 2016, around 100 universities from more than 30 countries are participating in the P2P Challenge.

We wish our Imagine Team good luck!






# CONGRATULATIONS to our Team IMAGINE!

**Team Imagine has been selected as one of the top three teams of the**
**P2P: CHALLENGING EXTREMISM PROGRAM**
**and will be presenting their marketing campaign**
**in USA (Washington, D.C.) on June 27, 2016**
**before the senior panel of judges from the U.S Department of State**

**This is an outstanding achievement!**
**We are very proud of our team and wish them good luck!**
**Go team Imagine!**





# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ PROKURORU TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜB

Aprelin 6-da NDU-da Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev ilə Hüquqşünaslıq ixtisasının tələbələrinin görüşü keçirilib. Görüşü rektor, AMEA-nın müxbir üzvü, professor Saleh Məhərrəmov açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı muxtar respublikada mütəxəssis hazırlığının səviyyəsinin yüksəldilməsi, müvafiq nazirlik və təşkilatların təhsil müəssisələri ilə əməkdaşlığı möhkəmləndirməsi, tədris olunan biliklərin praktiki tətbiqi və təkmilləşdirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Sosial idarəetmə və hüquq fakültəsinin Naxçıvan Muxtar Respublikası Ədliyyə və Daxili İşlər nazirlikləri, Ali Məhkəməsi ilə birgə keçirdiyi tədbirlər bu baxımdan təqdirəlayiqdir. Rektor bildirib ki, bu tədbirlərin peşəkar kadr hazırlığının vəziyyətinin yaxşılaşdırılması, bu sahədəki mövcud problemlərin aradan qaldırılmasında öz bəhrəsini verəcək.

Prokuror Səbuhi Şahverdiyev çıxış edərək ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq prokurorurluq orqanlarında apardığı köklü islahatlardan, Azərbaycan Respublikası Prokurorluğu sisteminin funksiya və vəzifələrindən, dövlətçiliyin möhkəmlənməsi və inkişaf etdirilməsindəki əhəmiyyətli rolundan bəhs edib. Prokuror, əsası 15 fevral 1923-cü il tarixdə qoyulmuş Naxçıvan Muxtar Respublikası Prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri barədə məlumat verərək muxtar respublikada hüquq institutlarının təkmilləşdirilməsi, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsi istiqamətində əhəmiyyətli işlər görüldüyünü vurğulayıb. Çıxışda prokurorluq orqanlarına işə qəbul qaydaları haqında məlumat verilib, ölkədə gənclərin aparıcı qüvvə kimi irəli çəkilməsindən danışılıb. Qeyd olunub ki, muxtar respublikada dövlət hüquq mühafizə orqanlarında çalışanların 95%-ini məhz Naxçıvan Dövlət Universitetinin məzunları təşkil edir.

Tələbələr bildiriblər ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kriminalist avtomaşının iş prinsipləri, İstintaq şöbəsinin fəaliyyəti, dövlət ittihamçısının məhkəmədə cinayət işlərinə baxılması zamanı icra etdiyi işlərlə tanış olmaları, Ağır Cinayətlər Məhkəməsində məhkəmə prosesində iştirak etmələri onlarda öz ixtisasları ilə bağlı zəngin təəssürat yaradıb.

Müzakirə şəklində yekunlaşan görüşdə tələbələrin sualları cavablandırılıb, təkliflər dəyərləndirilib.



# RUMINİYANIN FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ UNİVERSİTETDƏ

Rumınya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu aprelin 12-də Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində NDU-da da olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, hazırda dünyanın 50-dən artıq ölkəsinin 80-dən çox universiteti ilə beynəlxalq əməkdaşlığa malik olan, bir sıra beynəlxalq layihələrdə uğurla təmsil olunan universitetin bakalavr və doktorantları öz təhsillərini digər xarici ölkələrin ali məktəblərində, o cümlədən Rumınyanın Babeş-Bolyai və George Enescu universitetlərində davam etdirirlər.

Səfir ali məktəbin maddi-texniki bazası, strukturu, tədrisin keyfiyyəti, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi barədə məlumatlandırılıb. O, Rumınyanın Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olduğunu, möhkəm bünövrə üzərində qurulan bu əməkdaşlığın bu gün də uğurla davam etdirildiyini vurğulayıb. Naxçıvan Muxtar Respublikasına ötənilki səfərinin xoş təəssüratlarından danışan diplomat Azərbaycan və Rumınya arasında 2011-ci ildə imzalanmış "Strateji əməkdaşlıq" fəaliyyət planın əsasən iki ölkə arasında siyasi-iqtisadi, sosial-mədəni əlaqələr, elmi və təhsil sahəsində əməkdaşlığın inkişaf etdirildiyini diqqətə çatdırıb. Görüşdə Rumınya ali məktəbləri ilə tələbə mübadiləsi, virtual əməkdaşlığın inkişafı, onlayn simpozium və konfransların təşkili məsələləri müzakirə olunub. Rumınyalı diplomat universitetlə tanış olub, "Azərbaycan - NATO münasibətləri" mövzusunda məruzə edib.

Rumınya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu ölkəsinin NATO-nun Azərbaycandakı əlaqələndiricisi kimi gördüyü işlərdən də danışıb, tələbələrin suallarını cavablandırıb. Görüşün sonunda simvolik hədiyyələr təqdim olunub.

**Mehriban Sultan,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*




# ESFİDİP TEMPUS LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ LƏNKƏRANDA TƏLİM - SEMİNARLAR KEÇİRİLDİ

Aprelin 29-u və 30-da “Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində Lənkəran Dövlət Universitetində təlim-seminarlar keçirildi. Təlim-seminarların əsas məqsədi Lənkəran Dövlət Universitetinin inzibati işçi, müəllim və tələbə heyətinə əlillik, onun xüsusiyyəti, modelləri, bu haqda qanunvericilik, inkluziv təhsil və əlilliyi olan tələbələrlə etik davranış və dərs metodları haqqında məlumat vermək idi.

Təlim - seminarlar üç hissədən ibarət idi. Birinci hissədə təlimçi Mələk Kərimova (Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini) Lənkəran Dövlət Universitetinin müəllim heyətinə, ikinci hissədə isə təlimçi Rima Məmmədova (layihə rəhbəri və Əlilli olan Tələbələr üçün Mərkəzin koordinatoru) universitetin inzibati işçilərinə təlim keçdilər. Təlim-seminarların sonunda mövzu ətrafında sual-cavab oldu, iştirakçılar öz fikirlərini və təkliflərini irəli sürdülər.

Təlim-seminarın üçüncü hissəsi aprelin 30-da davam etdirildi. Təlimçilər Bəybala İbadullayev (Əlil Təşkilatları İttifaqının vitse-prezidenti), Saraya Səfəralıyeva (Əlil Təşkilatları İttifaqının əməkdaşı) və Rima Məmmədova Lənkəran Dövlət Universitetində təhsil alan tələbə heyəti üçün təlimlər keçdilər. Mövzu tələbələr arasında çox maraqla qarşılandı və çoxlu müzakirələr aparıldı. Tələbələr tərəfindən təlimçilərə çoxlu suallar və təkliflər verildi.

Günün ikinci yarısında təlimçilər və Lənkəran Dövlət Universitetinin layihə üzrə işçi qrupunun üzvləri Ramiz Şaməmmədov, Kamran Kazımov, Aynur Bünyadova, Ülvi Məhərrəmov və Zaur Məmmədov Lənkəran Dövlət Universitetinin rektor vəzifəsini icra edən professor Nizami Yusubovla görüşdülər. Professor Nizami Yusubov layihə iştirakçılarını salamladı və son dövrdə universitetdə aparılan işlər haqqında, o cümlədən beynəlxalq əlaqələr sahəsində görülən və görüləcək işlər haqqında geniş məlumat verdi. O, layihənin respublika üçün xüsusi əhəmiyyətini qeyd etməklə yanaşı, Lənkəran Dövlət Universitetində fəaliyyət göstərəcək mərkəzin bütövlükdə cənub bölgəsi üçün görəcəyi işlərin əhəmiyyətini də vurğuladı.



## TRAINING SEMINAR IN LANKARAN AS PART OF ESFIDIP TEMPUS PROJECT

On April 29-30, a training seminar was held at Lankaran State University as part of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project. The main goal of the training was to inform Lankaran State University staff members, instructors and students about disabilities and their characteristics, related legislation, inclusive education, teaching methods, and ethical treatment of students with disabilities.

The training seminar included three parts. The first part was led by Melek Karimova (Assistant Dean of the School of Humanities and Social Sciences at Khazar University) for Lankaran State University instructors; the second part was led by trainer Rima Mammadova (project manager and coordinator for the Center for Students with Disabilities) for university staff members. At the end of the training seminars there was a question-and-answer session, and participants shared their opinions.

The third portion of the training took place on April 30, Trainers Baybala Ibadullayev (Vice President of the Union of Organizations for Disabled People), Saraya Safaraliyeva (member of Union of Organizations for Disabled People), and Rima Mammadova taught Lankaran State University students. The students were very interested in the training, which sparked a great deal of discussion. They asked the trainers many questions and made suggestions.

In the afternoon of the same day, the trainers and Lankaran State University's project work group (Ramiz Shamammadov, Kamran Kazimov, Aynur Bunyadova, Ulvi Maharramov and Zaur Mammadov) met with Professor Nizami Yusubov, Acting Rector of Lankaran State University. Prof. Yusubov greeted the project participants and spoke about recent projects in the university, including current and planned international projects. He noted the importance of the project on a national scale and also stated his expectation that Lankaran State University would become an active center serving the entire southern region.

## "XƏZƏR"İN MÜƏLLİMİ ADİU-DA TƏLİM KEÇİRDİ

Aprelin 30-da Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) əsas binasında Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin assistenti Günel İsmayılova və "İqtisadçı Tələbələrin Elmi Fəaliyyətinə Yardım" İctimai Birliyinin İqtisad Universitetinin Beynəlxalq İqtisadi Münasibətlər fakültəsində sədri Orxan İsmayılovun təşəbbüsü ilə Xəzər Universitetinin müəllimi, fəlsəfə doktoru Mail Yaqub "XX əsr Avropa fəlsəfəsində Tanrı və insan münasibətləri" mövzusunda təlim keçirdi. Təlimdə ADİU tələbələri ilə yanaşı, Xəzər Universitetinin, Qafqaz Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və digər ali təhsil müəssisələrinin tələbələri, eləcə də, qonaq qismində Polşanın Yagelon Universitetindən gəlmiş tədqiqatçı Julia Krajcarz, Bakı Slavyan Universitetinin məzunu, dövlət qulluqçusu Səidə Abdullayeva da iştirak edirdilər.

Təliminin sonunda Mail Yaqub tələbələri maraqlandıran sualları cavablandırdı.

## ƏMƏKDAŞLARIMIZ ELMİ KONFRANSDA

Aprelin 30-da Bakı Slavyan Universitetində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Filologiya elminin aktual problemləri" adlı elmi konfransda Humanitar və sosial elmlər fakültəsinin baş laborantı Validə Kərimova (Dilşünaslıq ixtisası üzrə doktorant) "Qlobal körpüləşmə: mən sizin dilinizi danışıram" (ingiliscə) və Lamiyə Hacılı (Təhsildə qiymətləndirmə və monitorinq ixtisası üzrə magistrant) "Tarixə nəzərən təhsilin anlamı" mövzusunda çıxış etdilər.

Konfransın sonunda iştirakçılara elmi məqalələrin dərc olunduğu toplu və sertifikat təqdim olundu.

## "XƏZƏR"İN TƏLƏBƏSİ DEPRESSİYADAN YAZDI

Mayın 2-də ***xalqxeber.az*** xəbər saytında Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin tələbəsi Nərmin Quliyevanın "Kişilərdə depressiya: onlar intihara daha çox meyl edir" adlı yazısı yayımlanmışdır.

Yazını bu link vasitəsilə oxumaq olar:

*http://xalqxeber.az/sosial/359509-kishilerde-depressiya-onlar-intihara-daha-chox-meyl-edir.html*

## ERASMUS MUNDUS EMBER PROJECT RESULTS: MASTER STUDENT OF KHAZAR UNIVERSITY SELECTED FOR EXCHANGE IN POLAND



Vusala Huseynova, an MBA student of Khazar University, has been selected to participate in an exchange mobility within the Erasmus Mundus EMBER project. The University of Lodz in Poland will host Vusala Huseynova for 10 months.

Huseynova says, "Khazar University was my first and only preference to do a Master's Degree. Khazar University has partnership agreements with numerous European countries and this was one of the main reasons which triggered me and made me go for this challenge."

Vusala Huseynova shares her emotions on finding out about the EMBER project selection results: "I was so delighted to see my name on the list of selected candidates for EMBER project! To study abroad will be a great opportunity and experience for me. If we see the different influence of different teachers on us, then naturally the influence of different country, people, culture and education itself will be enormous."

Vusala also shares her expectations about the upcoming exchange: "I aim to get practical skills, extend my knowledge, and broaden my worldview and vision. I will do my best to use this chance effectively and come back to my country as a better-qualified person. Azerbaijan is a developing country and I aim to be one of the young professionals who will be useful to this country and able to take big steps in order to realize big projects and make it develop even more."

The International Affairs Office coordinates the EMBER project at Khazar University.

# TƏLİM KURSU UĞURLA DAVAM EDİR




Xəbər verdiyimiz kimi, Xəzər Universitetinin həyata keçirdiyi "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursları" layihəsi sayca dördüncü olub, aprelin 2-də universitetin "Neftçilər" kampusunda başlanmış kursun təlimləri uğurla davam edir.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacanqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir. Bu məqsədlə təlimlər 8 (Kurikulumun tətbiqi və idarəedilməsi, Təhsilin idarə olunması, Statistika və məlumatların təhlili, Maliyyə və mühasibat uçotu, Qanunvericilik və təhsil hüququ, Təhsil psixologiyası, Psixometrika, İKT) fənn üzrə həftədə 3 gün 12 saat olmaqla, 12 həftə davam edəcək.

Universitetin Multimedia mərkəzi tərəfindən kursun məşğələlərindən yeni çəkilmiş fotoşəkilləri təqdim edirik.

## "XƏZƏR"İN MÜƏLLİMİ BEYNƏLXALQ SİMPOZİUMDA

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti Elmira Məmmədova-Kekeç Türkiyənin Yozqat şəhərində Bozok Universiteti tərəfindən mayın 5-7-də keçirilmiş Beynəlxalq Bozok Simpoziumunda iştirak etmişdir.

Elmira Məmmədova-Kekeç "Yozqatlı Hüzninin divanında ənənədən izlər" adlı məruzə ilə çıxış etmişdir. Məruzədə XX əsr divan şairi Hüzni poeziyasında Nəsimi və Füzulinin şeirlərinin təsiri araşdırılmış, qəzəlləri arasında müqayisələr aparılmışdır.

## XƏZƏR UNİVERSİTETİNDƏ "MUZEY GÜNLƏRİ"

Xəzər Universitetinin Tarix və arxeologiya departamenti mayın 7-dən başlayaraq iki həftə ərzində "Muzey günləri" keçirmişdir. Departamentin müdiri Roza Arazova və departamentin müəllimləri Xaqan Balayev, Günay Novruzova, Ülviyyə İbrahimova, Ələkbər Ələkbərov Təhsil fakültəsinin, Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri ilə Azərbaycan tarixi fənninin bir dərsini Qobustan Milli Tarixi-Bədii Qoruğunda və Azərbaycan Tarixi Muzeyində keçmişlər. Muzeydə tələbələr Şah İsmayılın həyat və fəaliyyətinə həsr olunmuş sərgi ilə də tanış olmuşlar.





# MƏKTƏBLİLƏR "XƏZƏR"İN QONAĞI OLDULAR







Mayın 3-də Xəzər Universitetində Bakının Xətai rayonundakı 245 saylı məktəbin şagirdləri ilə görüş keçirildi. Görüşü universitetin rektoru Dr. Hassan Niknafs açaraq, şagirdləri səmimi salamladı, universitet haqqında geniş məlumat verdi. Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, Təhsil fakültəsinin dekanı Elza Səmədova, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, İnşaat mühəndisliyi departamentinin müdiri Tahir Çeyini, yəmənli tələbə Tareq Al-Hamidi çıxış edərək, 11-ci sinif şagirdlərinə Xəzər Universitetinin özəlliklərindən, proqramların müxtəlifliyindən danışdılar, orta məktəb şagirdlərinin çoxsaylı suallarını cavablandırdılar.

Sonra İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli məktəb şagirdlərini universitetlə tanış edərək, onlara geniş məlumat verdi. Şagirdlər Kitabxana-İnformasiya Mərkəzi, Psixologiya Mərkəzi, Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzi, İnşaat mühəndisliyi laboratoriyası, Xalçaçılıq Muzeyi, "Mərmər" zal və s. yerlərlə tanış oldular, Mədəniyyət Mərkəzində Kamera Orkestrinin ifasında bir neçə ifanı dinlədilər. Sonra çay süfrəsi ətrafında görüş davam etdi. Məktəbin nümayəndəsi Rübabə Əhmədova məktəbin rəhbərliyi adından Xəzər Universitetinin kollektivinə dərin təşəkkürünü bildirdi.

Məktəblilərlə xatirə şəkilləri çəkildi.







# SCHOOL PUPILS VISIT KHAZAR





On May 3, pupils of School number 245 visited Khazar University. Opening the event, Dr. Hasan Niknafs, President of the University, greeted the pupils and gave them detailed information about the university. Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs, spoke about academic programs. Other faculty members and Khazar representatives who spoke to the students about advantages of Khazar included Dr. Elza Semedli, Dean of the School of Education; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Tahid Chegini, Chair of the Department of Civil Engineering; and Tarag Al-Hamidi, International student from Yemen.

Then Alovsat Amirbeyli, Director for Public Relations and Media, gave the pupils a tour of the university. They viewed the Library-Information Center, Psychology Center, Center for Eurasia and Middle East Studies, Civil Engineering Laboratory, Carpet Museum, TIKA room, Marble Hall and other places. They listened to a performance of the Khazar University Chamber Orchestra in the Cultural Center. Then they were served tea. Rubaba Ahmadova, representative of the school, thanked the Khazar University administration on behalf of the school collective.











# BAKIDA AYDAN Bünyatovanın FƏRDİ SƏRGİSİ

*Xəbər verdiyimiz kimi ("Xəzər Xəbər, aprel 2016), məzunumuz Aydan Bünyatovanın fərdi sərgisi nümayiş etdirilmişdir. Sərgi haqqında yazını və fotoreproduksiyaları təqdim edirik.*

Paytaxtın "Qız qalası" qalereyasında gənc və istedadlı azərbaycanlı rəssam Aydan Bünyatovanın orijinal "Bax belə" adlı fərdi sərgisi nümayiş etdirilib.

Paytaxtımızda fərdi sərgilərin, mədəni tədbirlərin keçirilməsini artıq adət halı aldığını nəzərə alsaq da, Aydanın fərdi sərgisi  müəyyən mənada əlamətdar idi. Ola bilsin, Aydanın nikbin ovqatı, həyatsevərliyi və istedadı ona belə maraqlı rəsm seriyası yaratmağa imkan verib. Əvvəlcədən deyim ki, sərginin açılışına çox sayda qonaq və mətbuat nümayəndələri gəlmişdi.

Sərginin açılışında ilk çıxış edən Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru, xalq artisti Səlhəb Məmmədov oldu. O, gənc rəssamı fərdi sərgi münasibətilə təbrik etdi və onun gənc olmasına baxmayaraq, çox ustalıqla işlər ortaya qoyduğunu bildirdi: "Aydan cəmi bir neçə rəngdən istifadə etməklə çox gözəl rəsm əsəri ortaya çıxara bilər, bu, onun təkcə öz işinin ustası olduğunu yox, həmçinin perspektivli olduğunu göstərir". Tanınmış rəssam, "EmArt studio" təsviri sənətlər studiyasının təsisçisi Emin Qəhrəmonov çıxışında bildirdi ki, Aydan məhz bu studiyada Zöhrab Cabbarovun müşayiəti ilə təsviri sənətin incəliklərinə öyrənib.

«Mən Aydanın böyük gələcəyinin olduğuna şübhə etməmişəm. Bu təkcə onun istedadı ilə bağlı deyil, həmçinin inadkarlığı, zəhmətkeşliyi və öz işinə bağlılığı ilə əlaqədardır, bu isə çox şey deməkdir" – Emin Qəhrəmanov açıqlamasında bildirdi və səbəbkarı ilk fərdi sərgisi münasibətiylə təbrik etdi.

Emin Qəhrəmanov ANN.Az-a açıqlamasında Aydanın yaradıcılığı barədə fikirlərini bölüşdü: "Aydanın güclü tərəfi odur ki, o daim öz üzərində işləyir və başqalarını təqlid etmədən, öz üslubunu, öz imzasını tapmağa çalışır, ona görə də onun işləri digərlərindən fərqlənir. O hər zaman yaradıcı axtarışdadır. Aydan modern-ekspressionizm janrında şəkillər çəkir. Aydanın digər güclü tərəfi isə onun öz işlərini təkrarlamağa çalışmaması, yeniliyə, orijinallığa can atmasıdır. Mən qəti əminəm ki, onun gələcək sərgilərində o, əvvəlkilərindən fərqlənən nəsə maraqlı bir şey ortaya çıxaracaq".

ANN.Az fərdi sərginin səbəbkarı, Aydan Bünyatovanın özü ilə də söhbətləşməyə müvəffəq oldu. Rəssamın sözlərinə görə, rəsm işi ilə 5 ildir məşğul olur. Bildirdi ki, onun işlərinin böyük əksəriyyətini portret rəsmləri təşkil etsə də, o özünü portretist adlandırmaqdan çəkinir:

"İlk fərdi sərgimdə mən 3 ayda çəkilmiş 25 iş nümayiş etdirirəm. Portret seriyasına daxil olan personajlar öz emosionallıqları ilə fərqlənirlər, çünki mən əminəm ki, gözlər insan qəlbimin aynasıdır, insanın danışığındansa, gözlərindən çox şey öyrənmək olar. Məni Bob Marley çox cəlb edir, ona görə də ona bütöv rəsm seriyası həsr olunub. Təhsilimə gəldikdə isə, mən orta məktəbi incəsənət gimnaziyasında oxumuşam, 2013-cü ildə isə Xəzər Universitetinin biznesin idarə edilməsi ixtisasını bitirmişəm. Həmin il Londonun incəsənət gimnaziyasına daxil olmuşam, 2015-ci ildə oranı əla qiymətlərlə bitirmişəm, 12 fənn üzrə sertifikat almışam".

Londonda təhsil alması ona çox faydalı olub: "Britaniyada mən akrilə başqa tərəfdən baxmağa başladım, baxmayaraq ki, əvvəllər daha çox yağlı boyadan istifadə edirdim. Eksperiment etməkdən xoşum gəlir, akril isə mənə fantaziyamın sərhədlərini genişlənləşdirməkdə çox kömək edir. Bu boya kətana çəkdikdən sonra öz rəngini dəyişir. Bu gün mən akrildə və yağlı boyada çəkirəm. Gələcək barədə planım təkcə Azərbaycanda deyil, ölkə xaricində də sərgilənməkdir" – Aydan bildirdi.

**Rüstəm Qasımov,**
*Ann.az*
*http://ann.az/az/bakida-aydan-bunyatovanin-ferdi-sergisi-acilib-reportaj/#.VysXKYSLTcs*
25.04.2016





# TƏLƏBƏLƏR MƏRKƏZİ BANKIN "MALİYYƏ SAVADLILIĞI" LAYİHƏSİNDƏ

Mayın 3-də Xəzər Universitetinin tələbələri Mərkəzi Bankın "Maliyyə savadlılığı" layihəsinin bank-maliyyə sisteminin fəaliyyətinə dair maarifləndirici seminarları çərçivəsində AGBank-da keçirilən seminarda iştirak etmişlər.

Bu haqda bir çox xəbər saytlarında məlumat verilmişdir:

*http://www.azadliq.az/xeber/75617/r-agbank-da-telebelere-telim-kecirildi/*
*http://avropa.info/news/115525.html*
*http://news.lent.az/news/241569*
*http://xebervar.com/xebervar-agbank-da-telebelere-telim-kecirilib-t96321.html* və s.







# 3-cü "MİLLİ SPAGETTİ KÖRPÜ" MÜSABİQƏSİ

Mayın 4-də Xəzər Universitetində İnşaat mühəndisliyi departamenti tərəfindən 3-cü "Milli Spagetti körpü" müsabiqəsi keçirildi.

Körpüləri müsabiqədən bir gün əvvəl komitə tərəfindən qəbul edilmiş Xəzər Universiteti və Bakı Ali Neft Məktəbinin ümumilikdə üç qrupu bir-biri ilə yarışdı. Qalib komanda körpünün götürdüyü maksimum yükün körpünün öz çəkisinə olan nisbəti əsasında seçilirdi.

Nəticədə, Xəzər Universitetinin "Action körpüsü" qalib oldu.



# GƏNC ELEKTRONİKA MÜHƏNDİSLƏRİNİN UĞURLARI




Mühəndislik və tətbiqi elmlər fakültəsinin elektronika və biotibbi mühəndislik ixtisasları üzrə təhsil alan bir qrup tələbə üçün təşkil olunan "Elektrik mühəndisliyi" fənnində praktiki işlərə daha çox əhəmiyyət verilir. Tələbələr bir-birindən maraqlı elektronik qurğular hazırlayır, onları nümayiş etdirirlər. Bunlardan bəziləri daha əhəmiyyətli olduğundan, onlar artıq internetdə videoformatda yerləşdirilmişdir:

- **"Avtomatik günəş izləyici panel"** – *https://youtu.be/xRqpoIRBRUw*
- **"Vakuum təmizləyici qurğu"** – *https://youtu.be/84CsX-zrFS4*
- **"Günəş enerjisi ilə mobil telefon yükləyicisi"** – *https://youtu.be/r2S8dyIqTp8*

## BEYNƏLXALQ TƏLƏBƏ QƏBULU HAQQINDA İCLAS

Mayın 6-da Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi 2016-2017-ci tədris ili üçün elan olunmuş beynəlxalq tələbə qəbulu prosesinin gedişatı haqqında məlumat vermək üçün iclas keçirdi.

İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Dr. Hassan Niknafs, Akademik işlər üzrə prorektor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Təhsil fakültəsinin dekanı Elza Səmədova, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları iştirak edirdilər.

İclas Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərovanın ötən il və cari ilin müqayisəli statistikasını təqdim etməsi ilə başladı. O, keçən illə müqayisədə cari qəbul ilinə edilən dəyişikliklər haqqında iştirakçıları məlumatlandırdı. Şöbənin direktor assistenti Günay Fərzəliyeva daxil olan ərizələrin sayı, ölkələr üzrə paylaşımı, fakültələr, təhsil səviyyələri və s. haqqında ətraflı məlumat verdi. O, həmçinin, beynəlxalq tələbə qəbulu ilə bağlı keçirilən tədbirlər haqqında və 2016-2017-ci tədris ili üçün nəzərdə tutulan plan çərçivəsində görülən işlərdən danışdı.

İclas növbəti tədbirlərin müzakirəsi ilə başa çatdı.

## INTERNATIONAL AFFAIRS OFFICE REPORTS ON ADMISSION PROGRESS

On May 6, the International Affairs Office organized a meeting to report about the progress on international admission for the 2016-2017 academic year.

Participants included Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Dr. Hasan Niknafs, President of the University; Professor Mahammad Nuriyev, Vice President for Academic Affairs; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Dr. Elza Semedli, Dean of the School of Education; Raziya Isayeva, Development Director; Lyudmila Sotova, Director of the Quality Assurance Center; and International Affairs Office staff.

Turan Jafarova (Director, International Affairs Office) started the meeting with a presentation of comparative statistics for the current and last years. She informed participants about the changes introduced into the current admission cycle as compared to the previous year. Gunay Farzaliyeva (Director's Assistant) continued the presentation by giving thorough information about the number of received applications and their distribution by countries, schools, levels of study, etc. Gunay also reported on recruitment activities and provided information about the work carried out in the frame of the recruitment plan for the 2016-2017 academic year.

The meeting ended with a discussion about future steps.

# KARYERA SƏRGİSİ

## 6 MAY 2016







Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə universitetin Mərmər zalında Karyera sərgisi keçirildi. Sərgi saat 11:00-dan 14:00-a kimi davam etdi.

Sərgidə Azercell Telecom LLC, Ders Evi by Gilan Holding, Central Bank of Azerbaijan, AIESEC, Kaspi Education Company, Fireworks HRM Company, EF Education First, Ernst&Young Holdings, Pasha Bank, Azercell Barama Project, YARAT Contemporary Art Space, American Councils, Azersun Holding, PwC Azerbaijan, Employ LLC, Konsis MMC, Dream Business Solutions, Halliburton Eurasia Limited, ASC "Xalq" Banki, Expressbank, A-Level Education Center şirkətləri iştirak etdilər.

Sərgiyə başqa universitetlərin tələbələri və məzunları da dəvət olunmuşdular. İştirakçılar şirkətlərin verdiyi anket formalarını doldurmuş və öz CV-lərini təqdim etmişlər, onları maraqlandıran suallar cavablandırılmışdır.

# CAREER FAIR AT KHAZAR





On May 6, the Khazar University Career Center organized a Career Fair at the university. The fair took place from 11:00 to 14:00.

Companies that participated included: Azercell Telecom LLC, Ders Evi by Gilan Holding, Central Bank of Azerbaijan, AIESEC, Kaspi Education Company, Fireworks HRM Company, EF Education First, Ernst&Young Holdings, Pasha Bank, Azercell Barama Project, YARAT Contemporary Art Space, American Councils, Azersun Holding, PwC Azerbaijan, Employ LLC, Konsis LLC, Dream Business Solutions, Halliburton Eurasia Limited, ASC "Xalq" Bank, Expressbank, and A-Level Education Center.

Graduates and students from other universities also participated in the event, where they had the opportunity to fill out applications and give out their CVs.







# Azercell "YAY TƏCRÜBƏ PROQRAMI" KEÇİRƏCƏK

Mayın 6-da Xəzər Universitetində keçirilən "Karyera günləri" çərçivəsində iştirakçı şirkətlərdən biri olan "Azercell Telekom" MMC-nin mütəxəssisləri tələbələr üçün "Yay Təcrübə Proqramı" keçirmək qərarına gəlmişlər.

Bu haqda bir çox xəbər saytları məlumat yayınlamışlar:

*http://www.qafqazinfo.az/iqtisadiyyat-4/telebeler-yayda-dincele-bilmeyecekler-147255*
*http://www.marja.az/mikro/ksm/aksiya/item/197354-t?l?b?l?r-yayda-dinc?l?-bilm?y?c?kl?r.html*
*http://www.dia.az/8/107824-telebeler-yayda-dincele-bilmeyecekler.html* və s.




## YAZIÇI TƏLƏBƏLƏRİN QONAĞI OLDU

Mayın 6-da Xəzər Universitetində detektiv yazıçı Müşfiq Xan ilə görüş keçirildi. Tədbiri giriş sözü ilə universitetin İctimaiyyətlə əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açaraq qonağı, tələbələri və müəllimləri salamladı və bu silsilədən olan tədbirlərin gələcəkdə də keçirilməsini arzu etdi.

Qonaq Müşfiq Xan yaradıcılığı haqqında ətraflı məlumat verdi. Günü-gündən gənclər arasında ədəbiyyata olan marağın artmasından sevinc hissi duyduğunu dilə gətirdi. Yazıcı sonra əsərlərini yazdığı detektiv janrı haqqında tədbir iştirakçılarını geniş şəkildə məlumatlandırdı.

Daha sonra o, tələbələrin və müəllimlərin çoxsaylı suallarını cavablandırdı. Suallar detektiv janrın tarixi, yaranması və bu janrın ölkəmizdə oxunaqlı olmağa başlanması haqqında idi. Universitetin İngilis dili müəllimi Firəngiz Nəsirova qonağa ədəbiyyatımızda yazıçıların və əsərlərinin tanınması ilə bağlı problemlərdən danışdı.

Tədbirin ikinci hissəsində isə yazıçının kitablarının imzalanması mərasimi oldu. Sonda yazıçı universitet rəhbərliyinə və iştirakçılara minnətdarlığını bildirdi.

## KONFLİKTOLOGİYA İXTİSASI ÜZRƏ SİMULYASİYA

Mayın 11-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentində "Konfliktologiya" ixtisas fənni əsasında "Dağlıq Qarabağ münaqişəsinin həllində Madrid Prinsipləri" üzrə simulyasiya oyunu keçirilmişdir.

Bu haqda xəbər saytlında məlumat verilmişdir:

*http://azpress.az/index.php?lang=az&sectionid=news&id=53079*




# FAKÜLTƏ ƏMƏKDAŞLARI BEYNƏLXALQ KONFRANSDA







Xəzər universitetinin Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Mələk Kərimova (doktorant) və baş laborant Validə Kərimova (doktorant) Samsun Şəhər Milli Təhsil Müdirliyi və Samsun Canik bələdiyyəsinin (Türkiyə) dəvətilə Samsunda mayın 3-dən 9-dək keçirilən 6-cı Beynəlxalq "Psixoloji xidmət və rəhbərlik: hədəfə doğru insan" konfransında iştirak etdilər. Yerli iştirakçılarla yanaşı, müxtəlif ölkələrdən gəlmiş konfrans iştirakçılarının ümumi sayı 500 nəfərdən çox idi.

Mələk Kərimova "Azərbaycanda təhsil: Azərbaycanda psixoloji xidmət və rəhbərlik" mövzusunda çıxış etdi, "Əlil uşaqlar və onların ailələrinə psixoloji xidmət" mövzusunda isə vorkşoplar apardı. O, həm də konfransın xarici ölkələrdən olan iştirakçıları üzrə təşkilat komitəsinin üzvü idi.

Validə Kərimova da mövzu ilə əlaqəli həm çıxış etdi, həm də vorkşoplarda fikirlərini bildirdi.

Sonda iştirakçılara sertifikat verildi.

## CULTURAL LEADERSHIP WORKSHOP AT KHAZAR

On May 10, a Cultural Leadership Workshop took place at Khazar University for students of the School of Economics and Management. The workshop was facilitated by an international speaker, Mr. Attorney Attard. Toni Attard is Director of Strategy at Arts Council Malta, where he is leading a team responsible for the creation and development of the Council's strategy for the cultural and creative sectors including the national funding portfolio for the sectors. He previously served as Creative Economy Advisor within the Ministry for Finance. He is one of the authors of Malta's cultural policy and co-author of Malta's Creative Economy strategy. He is also a creative practitioner with active involvement as an actor, theatre director and festival director.














Mayın 6-da "Dünya" məktəbində görkəmli ingilis dramaturqu Vilyam Şekspirin vəfatının 400 illiyi münasibətilə "Şekspir Azərbaycanda – qaranlıqdan doğan həqiqət" adlı tamaşa nümayiş olundu. Tamaşanın layihə rəhbəri Nailə İsayeva, quruluşçu rejissoru Murad Allahverdi idi.

Məktəbin müəllim və şagird kollektivinin iştirakı ilə hazırlanan tamaşada xalq artisti Alim Qasımov və əməkdar artist Fərqanə Qasımova iştirak edirdilər.





Tamaşa Şərq və Qərb düşüncə tərzindəki oxşar və fərqli cəhətlər, rəmzlər, insan, cəmiyyət, eşq, azadlıq, mənəvi dəyərlər üzərində qurulmuşdu. Şekspirin yaradıcılığı fonunda Şərq ədəbiyyatının, o cümlədən poeziyasının tanınmış nümayəndələrinin yaradıcılığına müraciətlər olunur, mahiyyəti etibarilə eyni məzmun daşıyan əsərlərin qəhrəmanlarının yaşantıları əlaqələndirilirdi.













Tədbirdə tamaşanın layihə rəhbəri Nailə İsayeva, quruluşçu rejissoru Murad Allahverdi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, AMEA-nın vitse prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, millət vəkili akademik İsa Həbibbəyli, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdüri, filologiya üzrə elmlər doktoru, professor Asif Rüstəmli, şair Ramiz Rövşən, rejissor Ramiz Həsənoğlu, millət vəkilləri, ölkənin ədəbi ictimaiyyətinin nümayəndələri, media mənsubları iştirak edirdilər.



















# "SHAKESPEARE IN AZERBAIJAN: TRUTH RISING FROM DARKNESS" PERFORMANCE AT DUNYA SCHOOL











On May 6, a performance entitled "Shakespeare in Azerbaijan: Truth Rising from Darkness" was presented at Dunya School in honor of the 400th anniversary of great English playwright William Shakespeare's death. The project manager was Naila Isayeva, and the artistic director was Murat Allahverdi.

The performance was prepared by pupils and teachers of the school and included the participation of People's Artist Alim Gasimov and Meritorious Artist Fargana Gasimova. The performance was based on similarities and differences between East and West, including symbols, people, society, love, freedom and moral values. It highlighted similarities between characters in Shakespeare's works and very similar earlier Eastern literary works in the background of Shakespeare's creative activity.



Other participants in the event included Naila Isayeva, project manager; Murat Allahverdi, artistic director; Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Academic Isa Habibbeyli, Member of Parliament, Vice President of Azerbaijan National Academy of Sciences and Director of the Nizami Literature Institute; Professor Asif Rustamli, Division Head of the Nizami Literature Institute and Doctor of Philology; poet Ramiz Rovshan; director Ramiz Hasanoghlu; Members of Parliament; and representatives of the country's literary society and media agencies.












# TƏLƏBƏLƏR QOBUSTANDA DƏRS KEÇDİLƏR

Mayın 8-də Azərbaycan tarixinin və mədəni irsinin mühüm parçası olan Qobustan tarixi-mədəni landşaftına Xəzər Universitetinin Təhsil fakültəsinin tarix müəllimliyi ixtisasının tələbələri dərs proqramına uyğun elmi-ekskursiya xarakterli səfər etdilər. Bu səfər mühazirə-ekskursiya şəklində keçirilmiş və tələbələrin arxeologiyaya giriş fənni üzrə biliklərini təcrübi olaraq formalaşdırmaq məqsədi daşıyırdı. Səfəri Xəzər Universitetinin Tarix və arxeologiya departamenti təşkil etmişdi.





Mühazirə-ekskursiyada fənn müəllimi Orxan Zamanov ilə birgə tarixçi Dövran Abuzərov və Polşanın Yagelon Universitetindən gəlmiş tədqiqatçı Julia Krajcarz da iştirak edirdilər. Səfər zamanı hava şəraitinin münasib olması və tələbələrin təcrübi mühazirəyə olan marağı xüsusilə qeyd edilməlidir. Qobustan Milli Tarixi-bədii qoruğuna səfər tarix üzrə təhsil alan tələbələr üçün mühüm əhəmiyyət daşıdığından belə tədbirlərin keçirilməsi gələcəkdə də nəzərdə tutulmuşdur.



# STUDENT FIELD TRIP TO GOBUSTAN






On May 8, instructors of the Khazar University School of Education took their history education major students on an academic tour of Gobustan, an important piece of the historical and cultural landscape of Azerbaijan. This field trip included both a lecture and a tour, and its objective was to lay a practical foundation for students of the Introduction to Archeology class.





The trip was organized by Associate Professor Roza Arazova, Head of the Department of History and Archeology. Instructor Orkhan Zamanov and Julia Krajcarz, independent researcher from Poland, also participated in the trip. The suitable weather for the excursion and the students' high level of interest in the practical lesson were especially notable. Additional trips are being planned for the future because of the significance for students of visiting the Gobustan National Historical and Artistic Reserve.

MODERATOR.az

## HAMLET İSAXANLI TELEVİZİYALARA MÜNASİBƏT BİLDİRDİ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı mayın 10 - da *moderator.az* saytına verdiyi müsahibədə Azərbaycan televiziyalarındakı bir çox qüsurlara münasibətini bildirmişdir. *Bizimxeber.az* saytı da həmin müsahibəni *moderator.az*-a istinadla yayımlamışdır. Lakin hər iki saytda H. İsaxanlının fikirləri qismən təhrif olunmuşdur:

*http://www.moderator.az/news/136067.html*
*http://bizimxeber.az/2016/05/11/hamlet-isaxanli-telekanal-r?hb?ri?rini-haqli-rusvay-etdi/*



# "ZƏKALAR" LİSEYİNİN ŞAGİRDLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ



Mayın 11-də Xəzər Universitetində 287 saylı "Zəkalar" liseyinin XI sinif şagirdləri ilə görüş keçirildi. Görüşü Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs açaraq, Xəzər Universiteti və universitetdəki qurumlar haqqında geniş məlumat verdi. İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Himanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov çıxış edərək, şagirdləri fakültədə olan ixtisaslar haqqında məlumatlandırdılar.

Pakistan, Zimbabve, Yəmən və Kamerundan olan xarici tələbələr Xəzər Universiteti və Azərbaycan haqqında xoş fikirlərini şagirdlərə çatdırdılar və şagirdlərin suallarını cavablandırdılar. İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli "Zəkalar" liseyinin şagirdlərini universitetin laboratoriyaları, Kitabxana-informasiya mərkəzi, Psixologiya mərkəzi, İnşaat mühəndisliyi laboratoriyası və digər yerlərlə tanış etdi.

Sonda universitetin yeməkxanasında çay süfrəsi ətrafında şagirdlərlə maraqlı söhbət oldu, xatirə şəkilləri çəkildi.







# ZEKALAR LYCEUM PUPILS VISIT KHAZAR UNIVERSITY





On May 11, 11th-grade pupils from the Zekalar Lyceum Number 287 visited Khazar University for a meeting. Opening the event, Dr. Hassan Niknafs, President of the university, spoke about the structure of Khazar University. Deans also made presentations including Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; and Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences. International students from Pakistan, Zimbabwe, Yemen and Cameroon also spoke about their impressions of Khazar University and Azerbaijan. They answered pupils' questions. Alovsat Amirbeyli, Director for Public Relations and Media; Gunay Farzaliyeva of the International Affairs Office, gave the pupils a tour of the Khazar University laboratories, Library-Information Center, Psychology Center, Civil Engineering Laboratory and various other rooms.

Then the pupils were served tea in the university cafeteria.








## XƏZƏR UNİVERSİTETİNİN RƏHBƏRLİYİ BAKI TÜRK LİSEYİNDƏ

Mayın 12-də Xəzər Universitetinin rəhbərliyi Türkiyə Diyanət Vəqfinin Bakı Türk Liseyində oldu. Liseyin müdiri Kadir Bektaşoğlu və məktəbin rəhbərliyi Xəzər Universitetindən gələn qonaqları səmimi salamlayaraq, çay süfrəsinə dəvət etdilər.

K. Bektaşoğlu TDV Bakı Türk Liseyinin son illər əldə etdiyi nailiyyətlər haqqında geniş məlumat verdi, Xəzər Universitetinin fəaliyyəti haqqında məlumatları dinlədi. Liseyin akt zalına toplaşan şagirdlər Xəzər Universitetinin rəhbərliyini və xarici tələbələrini alqışlarla qarşıladılar. K. Bektaşoğlu Xəzər Universitetindən gələn qonaqları – universitetinin rektoru Dr. Hassan Niknafsı, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyevi, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədovu, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilovu, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəylini, Xarici əlaqələr şöbəsinin əməkdaşı Günay Fərzəliyevanı, həmçinin Pakistan, Zimbabve və Kamerundan olan əcnəbi tələbələri salonda toplaşanlara təqdim etdi.

H. Niknafs Xəzər Universiteti haqqında şagirdlərə geniş məlumat verdi və tələbələrin çoxsaylı suallarını cavablandırdı.

Əcnəbi tələbələr Xəzər Universitetindəki tələbəlik həyatından danışdılar.

## KHAZAR UNIVERSITY ADMINISTRATION VISITS BAKU TURKISH LYCEUM

On May 12, the Khazar University administration visited the Turkey Diyanet Vakfi Baku Turkish Lyceum. Kadir Bektasoglu, Director of the Lyceum, welcomed the delegation and served tea for them.

Then K. Bektasoglu spoke about the accomplishments of the TDV Baku Turkish Lyceum in recent years. He also was given information about Khazar University. An assembly was held in the conference hall so Lyceum pupils could meet the Khazar University administration and International students. The delegation included Dr. Hasan Niknafs, President of the University; Professor Mahammad Nuriyev, Vice President for Academic Affairs; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Alovsat Amirbeyli, Director for Public Relations and Media; Gunay Farzaliyeva of the International Affairs Office; and international students from Zimbabwe and Cameroon. Prof. Niknafs made a presentation about Khazar University and answered pupils' questions.

International students spoke about student life at Khazar University.

# AMERİKALI PROFESSOR "XƏZƏR"DƏ MÜHAZİRƏ OXUDU

Mayın 12-də Xəzər Universiteti Bioloji elmlər departamentinin dəvəti ilə Amerikanın Mikrobiologiya Cəmiyyətinin Texas filialının prezidenti və Texas at Tyler Universitetinin professoru Ali Azğani "Pseudomonos infeksiyasının patogenezi və müalicəsi– keçmişi, bu günü və gələcəyi" mövzusunda universitetdə tələbələrə, həkim, müəllim və tədqiqatçılara mühazirə oxudu. Tədbirdə universitetin rektoru Dr. Hassan Niknafs, Bioloji elmlər departamentinin doktorantura tələbələri, AMEA-nın əməkdaşı Fəxrəddin Əsgərov, "Nərgiz" klinikasının baş həkimi Məlahət Qəhrəmanova və klinikanın həkimləri, Tibb Universitetinin Tibbi mikrobiologiya və immunologiya kafedrasının dosenti Nigar Ağayeva və departamentin gənc tədqiqatçısı Fidan Bağırova iştirak edirdilər.

Mühazirədən sonra antibakterial müalicədə antibiotiklərə qarşı rezistentlik, həmçinin Azərbaycanda antibakterial rezistentliyin aradan qaldırılması üçün Amerikanın Texas at Tyler Universitetinin Biologiya departamenti ilə birgə tədqiqat işlərinin aparılmasın barədə maraqlı müzakirələr apardılar.



# AMERICAN PROFESSOR GIVES LECTURE AT KHAZAR UNIVERSITY



On May 12, Professor Ali Azghani of the University of Texas at Tyler visited Khazar University as a guest of the Biology Department. Professor Azghani is also the President of the Texas branch of American Microbiologists' Society. He gave a lecture on "Pathogenesis and treatment of Pseudomonas infection: history, today and the future" for students, doctors, instructors and researchers. Other participants in the lecture included Dr. Hassan Niknafs, University President; PhD students of the Biology Department; Professor Fakhraddin Asgarov of Azerbaijan National Academy of Sciences; Malahat Gahramanova, Senior Physician of Nargiz Clinic; Associate Professor Nigar Aghayeva of the Medical Microbiology and Immunology Department of the Medical University; and Fidan Baghirova, young researcher of the same department.

After the lecture, participants held a discussion on resistance to antibiotics in antibacterial treatment. At the end of the event, a discussion was held about possible research plans with the Biology Department of University of Texas at Tyler to eraticate antibacterial resistance in Azerbaijan.

# FİRUDİN HƏSƏNOV



# QƏLƏBƏYƏ APARAN YOL

... Firudin hələ altı yaşında ikən onda idmana həvəs və istək yaranmışdı. Arzusu tanınmış idmançı olmaq idi. Bu istəyi ailəsindən gəlirdi. Atası Faiq Həsənov bir neçə dəfə boks üzrə SSRİ çemoionu olub, SSRİ-nin Fəxri idmançısı adına layiq görülüb.

Firudin 9 yaşından boksla ciddi və müntəzəm məşğul olmağa başlamışdır. Hazırda boks üzrə Azərbaycanın yığma komandasının müəllimi olan Nəriman Nərimanovun nəzarəti altında məşq eləmiş, üç dəfə 56 kq çəki dərəcəsidə respublika miqyaslı turnirlərin qalibi olmuşdur. Sonra idman növünü dəyişərək, şərq döyüşünün bütün növləri ilə, ən əsası isə king boks ilə məşğul olmuşdur.

2014 - cü ildə Firudin Həsənov Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinə daxil olaraq, tərcümə ixtisası üzrə təhsil almağa başlamışdır. Hazırda ikinci kurs tələbəsi olan Firudin qəbul imtahanına hazırlaşdığı zaman idmandan az müddət uzaq qalmasına baxmayaraq, universitet mühiti onda idmana daha da böyük həvəs oyatmışdır. Deyir ki, universitetdə tələbələrin bütün sahələrdə məşğul olmaları üçün hər bir şərait yaradılmışdır. Məhz buna görə Firudin həm təhsilini, həm də idmanla faaliyyətini inamla davam etdirir. O, deyir ki, savadsız insan yaxşı idmançı ola bilməz, yəni idmanda təkcə güc yox, həm də savad, ağıl mütləq lazımdır.

Firudin Dövlət Sərhəd Xidmətinin qarışıq döyüş növləri üzrə yığma komandasının baş məşqçisi, baş leytenant Babək Əliyevin tələbəsidir. Xəzər Universitetində oxuduğu bu iki il ərzində 4 yarışda iştirak etmişdir. 2014-cü il martın 8 dən 14-ə qədər Azərbaycan kuboku uğrunda keçirilmiş uşu-sanda yarışında 80 kq çəki dərəcəsində birinci yer tutmuşdur. Həmin il iyunun 20 dən 24-ə qədər keçirilən Bakı çempionatında da birinci yerə layiq görülmüşdür. 2015-ci il dekabrın 17 dən 19-a qədər keçirilmiş respublika çempionatının, həmin il yanvarın 18-dən 20-ə qədər şəhidlərin xatirəsinə həsr olunmuş Bakı turnirinin də qalibi olmuşdur.

İlk xarici ölkəyə səfəri 15 yaşında ikən Bolqarıstanın Sofiya şəhərinə olmuşdur. Orada uşu-sanda üzrə keçirilmiş Avropa çempionatında, 2012-ci ildə Belçikanın Brüssel şəhərində keçirilmiş ölkələrarası kinq-boks yarışında öz çəki dərəcəsində birinci yeri tutub.

Firudin uğurlarına görə ailəsinə, atasına və məşqçisi Babək Əliyevə, eyni zamanda Xəzər Universitetinin rəhbərliyinə, oxuduğu fakültənin əməkdaşlarına minnətdar olduğunu bildirir. Deyir ki,

universitetdə yaradılan rahat şərait, tələbələrə göstərilən qayğı və diqqət onun uğur qazanmasına kömək edir.

Atasının yarışlara psixoloji cəhətdən hazırlaşmasında yardımını xüsüsulə qeyd edir. Atasını özünə örnək və ideal bilir. Ailəsinin ona yaratdığı şərait də uğurlarının davamlı olmasını şərtləndirir.

Yaxından tanıdığı idmançılardan Rəfael Ağayev, Toğrul Əsgərov və Ağaxan Mamayev kimi Firudin də yüksək zirvələrdə olmağı arzu edir. 4 dəfə dünya, 13 dəfə Avropa çempionu olmuş karateçi Rəfael Ağayev həm dostu, həm də idmançılar arasında örnək saydığı insandır. Deyir ki, onun göstərdiyi nəticələr sayəsində bayrağımız istər xaricdə, istərsə də ölkəmizdə hər zaman yüksəklərdə dalğalanıb. Rəfael Ağayevin "Bakı - 2015" Avropa oyunlarında da ölkəmizi layiqincə təmsil edib, qələbə qazanması onun layiqli bir vətəndaş və güclü idmançı olmasının əyani sübutudur.

Gələcəkdə o da Rəfael Ağayev kimi dünya çempionu olacağına inanır. Tanınmış idmançı olarsa, bacardığı qədər idmana töhfələr verməyi və idman zalları açmağı arzu edir. Firudin deyir ki idmançı ən ağır şəraitdə belə yetişə bilər, bunun üçün sadəcə insanın özünə inanması və daxili istək lazımdır. O, atasının da ağır şəraitlərdə zirvələrə yüksəlməsini özü üçün bir nümunə hesab edir. Firudin deyir ki, atam mənə hər bir şəraiti yaradıb, ona görə də mən hər zaman uğur əldə etməliyəm və bunun üçün də yorulmadan çalışacağam.

O, qızların da idmanda olmasını dəstəkləyir: "bizim idman zallarımıza qızlar da gəlir və heç vaxt onlara qarşı artıq - əksik hərəkət olmayıb. Necə oğlanlar bizim idmanda dostlarımızdırsa, onlar da bizim idman dostlarımızdır.

Əlbəttə, qızlar da böyük idmançı ola bilərlər. Gələcəyin anası olaraq övladlarını və ya özünü müdafiə edə bilərlər. İdman həyatında keçirdiyim müddət ərzində öyrəndiklərimdən yaşıdlarıma demək istəyirəm ki, vaxtlarını boş yerə sərf etməsinlər. Elm, savad, idman dalınca getsinlər və öz fəaliyyətlərini dəyərləndirsinlər.

İnanıram ki, hər zaman ölkəmi layiqincə təmsil edəcəyəm. İdman həyatımın ayrılmaz hissəsidir, ona görə də, 2017-ci ildə ölkəmizdə keçiriləcək İslam Olimpiya oyunlarında iştirak edəcəyəm. İnanıram ki, bayrağımızı yüksəklərə qaldıracağam."

**Fəridə Ocaqova,**
*Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin tələbəsi*

## HAMLET İSAXANLININ SÖZLƏRİNƏ YAZILMIŞ MAHNI XƏZƏR TV-DƏ İFA OLUNDU

Mayın 12-də Xəzər TV-nin "Yeri gəlmişkən" verilişində tanınmış müğənni Samir Cəfərov sözləri Hamlet İsaxanlıya və musiqisi Elza Seyidcahana məxsus olan "Bakı" mahnısını ifa etdi.

## "ELSEVİER" NƏŞRİYYATININ NUMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

Mayın 13-də Xəzər Universitetində "Elsevier" Nəşriyyatının Mərkəzi Asiya və Qafqaz regionu üzrə numayəndəsi Kuşnud Kərimov ilə görüş keçirildi. Görüşdə Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs, Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, müəllimlər və Kitabxana-informasiya mərkəzinin əməkdaşları iştirak edirdilər.

Görüşdə Xəzər Universitetinin "Elsevier" Nəşriyyatının "ScienceDirect" Elmi Məlumat Bazasına qoşulması, gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.



## REPRESENTATIVE OF ELSEVIER PUBLISHING AT KHAZAR UNIVERSITY

On May 13, Kushnud Karimov, representative of Elsevier Publishing for Central Asia and the Caucasus Region, visited Khazar University and held a meeting with Dr. Hasan Niknafs, President of the University; Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; and members of the media. The meeting included a discussion of Khazar University's access to Elsevier's ScienceDirect Scientific Database as well as potential future cooperation.

# AMOS OZ



# NORVEÇ KRALI

(Hekayə)

*Amos Oz 1939-cu il mayın 4-də Yerusəlimdə Şərqi Avropadan olan mühacir ailəsində anadan olmuşdur. 15 yaşında ikən Xulda kibusunda (kibus – İsraildə kənd təsərrüfatı kommunası – red.) məskunlaşmış,1986-cı ildə Arad şəhərinə köçənədək orada yaşamış və işləmişdir (gəncliyində fəhlə, sonra 25 il ərzində müəllim). Yerusəlimdəki Yəhudi Universitetində və Oksford Universitetində fəlsəfə və ədəbiyyat təhsili almışdır.*

*Ədəbi yaradıcılığa 20 yaşında ikən qısa hekayələrlə başlamışdır. İlk hekayələr toplusu – "Çaqqalın məskəni" (1965) İsrail cəmiyyətində böyük maraq doğurmuşdu. Yazıçının "Mənim Mixaelim" romanı (1968)Beynəlxalq Naşirlər Assosiasiyası tərəfindən "XX əsrin ən yaxşı romanı" siyahısına daxil edilmişdir. Əsərləri 38 dilə tərcümə edilərək, dünyanın 36 ölkəsində çap olunmuşdur. Əsərlərini ivrit dilində yazır.*

*Oksford Universitetində, Yəhudi Universitetində və Kolorada kollecində mühazirə oxumuş, hazırda Ben-Qurion Universitetində çalışır.*

*Ədəbiyyat sahəsində bir neçə nüfuzlu mükafatın laureatı, bir sıra universitetlərin fəxri doktorudur.*

Qaldığım Yekhat kibusunda Zvi Provizor adlı biri vardı. Təxminən əlli yaşlarında, alçaqboylu, subay kişi idi. O, tez-tez göz qırpmağı və bəd xəbərlər verməyi sevirdi: zəlzələlər, təyyarə qəzaları, sakinlərin üstünə uçan evlər, yanğınlar, sellər. Səhərin gözü açılmamış hamıdan qabaq qəzet oxumağa, radiodakı xəbərlər buraxılışına qulaq asmağa tələsirdi ki, yeməkxananın kandarında görünən kimi xilas ümidi olmayan iyirmi Çin şaxtaçısı və ya Karib dənizində fırtınadan sonra tərs çevrilmiş bərə ilə birlikdə dənizin dibinə getmiş altı yüz sərnişin barədə məlumatla hər kəsi sarsıtsın. O, diqqətlə matəm elanlarını izləyir, məşhur adamların ölümü barədə bizdən əvvəl xəbər tutur və bütün kibusu xəbərdar edirdi. Bir səhər ambulatoriyanın yaxınlığında yolumu kəsib dedi:

– Vislavski adlı yazıçı var. Eşitmisən?

– Hə, nə olub ki?

– Ölüb.

– Təəssüf.

– Yazıçılar da ölür…

Bir dəfə də məni yeməkxanaya keşik çəkəndə tutdu:

– Babanın vəfatı barədə elanı gördüm...

– Hə.

– Üç il əvvəl də baban ölmüşdü.

– Hə.

– Deməli, bu sonuncusu olmalıdır...

Zvi Provizor tək işləyirdi. O, kibusun yaşıllaşdırılması ilə məşğul olur, ərazinin gözəlliyinə nəzarət edirdi. Adətən, səhər saat beşdə oyanıb sulama cihazlarını işə salır, çiçək ləklərinin torpağını yumşaldır, şitillər əkir, kəsir, qazır, sulayır, səs-küylü otbiçən maşınla çəmənlikləri qaydaya salır, cücülərlə mübarizə üçün dərman səpir, kimyəvi gübrələr verirdi. Kəmərindən tranzistor radioqəbuledici əskik olmazdı. Bu cihaz Zvini gündəlik xəbərlərlə təmin edirdi. O, yalnız özünə lazım olan dəhşətli xəbərləri yadda saxlayırdı. Belə xəbərlərin isə ardı-arası kəsilmirdi:

– Anqolada dəhşətli qətliam olub. Eşitmisən?

Ya da:

– Dini işlər üzrə nazir ölüb. Bu barədə on dəqiqə əvvəl xəbər verdilər. Eşitmisən?

Kibusun üzvləri ondan uzaq gəzir, yeməkxanada onunla bir masa arxasında əyləşməkdən çəkinirdilər. Zvi yay axşamlarında, yeməkxananın qarşısındakı geniş çəmənliyin kənarındakı yaşıl skamyada oturub, oynayan uşaqlara tamaşa edirdi. Axşam mehi onun köynəyini yellədir, tərini soyudurdu. Hündür sərv ağaclarının üzərində parlaq qırmızı ay yüksəlirdisə, havanın bürkü və boğanaq olacağını bilirdik. Zvi Provizor qonşu skamyada oturan qadına müraciət etdi (onun adı Lona Blank idi):

– İspaniyada yetimxana yanıb və səksən yetim tüstüdən boğulub. Eşitmisiniz?

Məktəbdə müəllimə işləyən qırx yaşlı dul alnındakı təri silib dedi:

– Bu dəhşətdir, bu faciədir...

– Üçünü xilas etmək mümkün olub, ancaq onların da vəziyyəti ağırdır.

Kibusda Zvinin abadlaşdırma və yaşıllaşdırma işləri sahəsində uğurlarını qiymətləndirib hörmət edirdilər. İşlədiyi iyirmi iki il ərzində əmək kitabçasında iş buraxdığı barədə bircə qeyd belə yox idi. Hətta xəstəliyə görə də icazə almamışdı. Onun zəhməti və qayğısı sayəsində kibusun ərazisi çiçəklənir, xoş ətir saçır və yaşıllığı ilə ürək oxşayırdı. O, bütün boş torpaq sahələrində mövsüm çiçəkləri əkmişdi. Bəzi yerlərdə daş hasarlar çəkib görünməmiş kaktus növləri yetişdirərdi. Əkdiyi tənəklərə yuva olan çardaqlar da tikmişdi. Yeməkxananın qarşısında isə dibində qızıl balıqlar və cürbəcür yosunlar olan fontan quraşdırmışdı. Şübhəsiz, Zvi əsl gözəlliyin, biz isə Zvinin dəyərini bilirdik. Buna baxmayaraq, onu öz aramızda "Ölüm mələyi" adlandırır, arxasınca danışırdıq.

O, heç vaxt qadın cinsinin nümayəndələri ilə maraqlanmazdı. Səhv anlamayın. Elə kişilərə də yaxın getməzdi. Roni Şindlin Zvini elə yaxşı təqlid edirdi ki, biz hər dəfə gülməkdən uğunub gedirdik. Günortadan sonra kibusun sakinləri – hərə öz ailəsi ilə – evlərinin verandasında oturub kofe içəndə və ya çəmənlikdə uşaqları ilə oynayanda, Zvi Provizor kluba yola düşürdü. O, burada özü kimi mətbuat və qızğın mübahisə həvəskarı olan subay, boşanmış, dul qocalarla birlikdə qəzet oxuyurdu. Balacaboy, keçəl, yarasa qulaqlı Reuvka Rot deyirdi ki, ordunun xüsusi bölməsinin terroristlərə qarşı keçirdiyi intiqam əməliyyatından sonra tökülən qanları dayandırmaq mümkün olmayacaq. Çünki intiqam, intiqam gətirir. Həmin dəqiqə hamı qışqıra-qışqıra onun üstünə düşürdü:

– Sən nə deyirsən? Sakit dayanmaq olmaz! Cavab verməsək, passivliyimiz ərəblərin həyasızlığına güc verər.

Bu yerdə Zvi Provizor adəti üzrə gözlərini qırpıb fikrini bildirirdi:

– Baş verənlər əvvəl-axır müharibəyə səbəb olacaq... Bizi dəhşətli müharibə gözləyir.

Pəltək İmmanuil Qlozman əsəbiləşirdi:

– Mı-mı-müharibə. La-lap y-yaxşı. Biz qa-a-lib gə-ə-ləcəyik və İy-iordaniyaya qədər o-onların bütün ə-ərazilərini tut-tutacağıq.

Reuvka Rot fikirlərini dilə gətirdi:

– Ben-Qurion əla şahmatçıdır. Həmişə beş gediş əvvəli görür. Ancaq məsələ burasındadır ki, o, həmişə hər şeyi güclə əldə edir.

Zvi Provizor belə cavab verirdi:

– Əgər uduzsaq, ərəblər bizi yer üzündən siləcək. Qalib gəlsək, ruslar bombardman edəcək.

İmmanuil Qlozman dostlarına müraciət edirdi:

– Bə-ə-sdir, ki-kifayətdir, dostlar. S-sakit. Qo-qo-qoyun, sakitcə qə-ə-zetimizi oxuyaq.

Ancaq Zvi münasib məqamı gözləyib, hamıya xəbər verdi:

– Burada yazılıb ki, Norveç kralı xərçəng xəstəliyinə tutulub. Bizim regional şuranın başçısı da xərçəng idi. Eşitmisiniz?

Zarafatcıl Roni Şindlin Zvi ilə pinəçinin, ya da geyim anbarının yanında qarşılaşanda soruşurdu:

– Hə, Ölüm mələyi, bu gün hansı təyyarə qəzaya uğrayıb?

Zvi Provizor hər axşam Lona Blank ilə fikir mübadiləsi aparmağa öyrəşmişdi. Zvi çəmənliyin kənarındakı sol skamyanın sağ küncündə, Lona isə sağ skamyanın sol güncündə otururdu. Zvi gözlərini qırpa-qırpa danışır, Lona əlindəki yaylığı ovcunda sıxırdı. Onun əynində qəşəng, yüngül yay paltarı olardı. O, Zvinin yaşıllaşdırma işlərini tərifləyir, deyirdi ki, Zvi sayəsində biz "çiçəklənən yaşıl vadidə, barlı meyvə bağının kölgəsində, açılan çiçək ləklərinin arasında" yaşayırıq... Bu xanımın təntənəli, boğazdan yuxarı sözlərə meyli var idi. Lona üçüncü sinif uşaqlarına dərs deyir və karandaşla incə eskizlər çəkirdi.

Onun işləri balaca mənzillərimizin divarlarını bəzəyirdi. Lonanın yumru, gülümsər sifəti, uzun kirpikləri, seyrək qırışlı boğazı, çox nazik ayaqları var idi. Döşləri isə, demək olar ki, yox idi. Əri bir neçə il bundan əvvəl orduda xidmət zamanı Qəzza sərhəddində ölmüşdü. Övladı olmamışdı. Hamımız ona xoş münasibət bəsləyirdik. Çünki başına gələn bədbəxtliyə ləyaqətlə dözür, özünü pedaqoji fəaliyyətə həsr edirdi. Zvi onunla qızılgüllərin növləri barədə danışırdı və Lona səslənən hər sözlə ürəkdən razılaşırmış kimi başını yelləyirdi. Sonra Zvi Sudanı bürüyən çəyirtkə basqınının təfərrüatlarını danışmağa başladı... Lona dedi:

– Siz qeyri-adi dərəcədə həssas insansınız.

Zvi gözlərini qırpıb dedi:

– Çəyirtkəsiz də orada yaşıllıq azdır. Sudanı deyirəm.

Lona dedi:

– Niyə dünyanın bütün fəlakətlərini ürəyinizə bu qədər yaxın qəbul edirsiniz?

Zvi cavab verdi:

– Məncə, həyatın qəddarlığına göz yummaq həm axmaqlıq, həm günahdır. Əlimizdən bir şey gəlmir. Heç olmasa, xəbərimiz olsun...

Bir axşam Lona, Zvini evinə, qəhvə içməyə dəvət etdi. Zvinin əynində hər axşam geyindiyi paltar – xaki rəngli uzun şalvar və qısa qollu mavi köynək var idi. O, saat səkkizdə ev

sahibəsindən üzr istəyib son xəbərləri dinlədi. Divarda sadə çərçivəyə alınmış bir neçə eskiz asılmışdı. Bu eskizlərdə xəyalpərəst qızlar, qayalıq mənzərələri, zeytun ağacları əks olunmuşdu. Pəncərənin yanındakı iki nəfərlik yatağın örtüyü və yastıqlar Şərq üslubunda naxışlarla bəzənmişdi. Ağ rəfdəki kitablar "boy sırasına" görə düzülmüşdü. Əvvəlcə Van Qoqun, Sezanın, Qoqenin işləri olan albomlar, sonra Umberto Kassutonun şərhləri ilə 15 cildlik Tanax *(yəhudilərin müqəddəs yazılar toplusu; bu kitab xristianlar tərəfindən Əhdi-ətiq adlandırılır və Bibliyanın birinci hissəsini təşkil edir –* **red.***)* və "Xalq kitabxanası"nda çap edilmiş bir sıra romanlar. Otağın mərkəzində dairəvi qəhvə stolu və sadə stullar qoyulmuşdu. Stolun üstünə krujevalı süfrə sərilmiş, qəhvə və pirojna üçün iki dəst düzülmüşdü. Zvi Provizor dedi:

– Eviniz qəşəngdir, – və əlavə etdi, – Təmiz. Səliqəli. Lona Blank utanıb dedi:

– Sağ olun, bəyəndiyinizə sevindim.

Ancaq onun səsində sevincdən çox, gərginlik və utancaqlıq hiss edilirdi. Sonra onlar qəhvə içib pirojna yedilər, dekorativ və bar gətirən ağaclardan, köçəri quşlardan danışdılar, hər şeyin azad olduğu müasir dövrdə şagirdlərin intizam problemlərini müzakirə etdilər. Zvi gözlərini qırpıb dedi:

– Qəzetlərdə yazılıb ki, bombardmandan on il keçsə də, Hiroşimada quş yoxdur.

Lona cavab verdi:

–Dünyanın bütün qəmini öz çiyninizə götürürsünüz. Srağagün pəncərəmə uzanan budaqda şanapipik görmüşəm.

Beləcə, hər axşam görüşməyə başladılar. Bəzən gözəl yaşıl guşələrdən birində, şaxəli ağacların sıx kölgəsindəki skamyada oturub söhbət edir, bəzən də Lonanın evində qəhvə içirdilər. Zvi saat dörddə işdən qayıdır, duş qəbul edir, saçlarını darayır, xaki rəngli ütülü şalvarını və mavi köynəyini geyinib, Lonanın görüşünə gedirdi. Arada Lonaya mövsüm çiçəklərinin şitilini gətirir, həyətindəki balaca bağçada əkirdi. Hətta bir dəfə Yakov Fixmanın seçmə şeirlər toplusunu da gətirmişdi. Lona isə ona xaşxaşlı korjlar və iki sərv ağacı ilə bir skamya əks olunmuş şəkil hədiyyə etmişdi. Onlar səkkizdə və ya doqquzun yarısında ayrılırdılar və Zvi evinə qayıdırdı. Bu evdən kəskin subaylıq qoxusu gəlirdi. Zarafatcıl Roni Şindlin kibus yeməkxanasında demişdi ki, Ölüm mələyi mehrini Qara dula salıb. Nahardan sonra qəzet oxunan klubda Reuvka Rot, Zviyə yaxınlaşıb yarıciddi, yarızarafatyana soruşdu:

– Hə, nə oldu, həmdəmini tapdın?

Ancaq Zvi və Lona şayiələrdən, kinayədən qorxmadılar. Əksinə, münasibətləri günü-gündən möhkəmlənirdi. Zvi Lonaya bir sirrini açmışdı. O, boş vaxtlarında Yaroslav İvaşkeviçin romanını polyak dilindən ivritə çevirirdi. Zvinin dediyinə görə, yazıçı bu dünyadakı vəziyyəti həm maraqlı, həm də həssas hesab edirmiş. Lona başını yana əyib, dodaqlarını aralayıb ona qulaq asır, arada Zvinin qəhvəsini təzələyirdi.

Lona Zvinin söhbətlərindən təsəlliyə ehtiyacı olduğunu hiss edirdi. Elə bil, tökdüyü qəhvə, az da olsa, yazıçı İvaşkeviçin də, Zvinin də ağrılarına və peşmanlığına məlhəm olacaqdı. Lona bir-birinə bənzəyən günlərinə rəng qatan dostuna dəyər verirdi. Bir gecə yuxuda birlikdə at çapdıqlarını görmüşdü. O, sinəsini Zvinin kürəyinə söykəyib qollarını belinə dolamışdı. Hündür dağların arasında, uçurumun kənarı ilə gedirdilər. Aşağıda çay ilan kimi qıvrılır, köpüklənirdi. Digər yuxuları tələsmədən, təfərrüatları ilə danışsa da, bu yuxusunu Zviyə danışmamaq qərarına gəldi..

Zvi isə gözlərini qırpa-qırpa uşaq olanda qurduğu tələbəlik xəyalları barədə danışırdı. Polşada, Yanov adlanan yerdə oxumaq istəyirdi. Ancaq həmin vaxt Gənc pioner hərəkatı onun

diqqətini yayındırır və Zvi onlara qoşulub universitet təhsilindən imtina edir. Hərəkatın üzvləri müvafiq hazırlıqdan sonra İsrail torpağında məskunlaşmağa hazırlaşırdılar. Buna baxmayaraq, Zvi hər gün öyrənir, oxuyur, kitablarda yazılanları dərk etməyə çalışır.

Lona ehtiyatla süfrəyə düşmüş iki qırıntını götürüb dedi:

– Yəqin utancaq oğlan olmusunuz. İndi də bir qədər utancaqsınız.

Zvi cavab verdi:

– Məni tanımırsınız.

Lona dedi:

– Danışın. Mən qulaq asaram.

Zvi xəbər verdi:

– Bu gecə radioda eşitdim ki, Çilidə vulkan püskürüb. Dörd kənd tamamilə lava axınının altında qalıb. Sakinlərin çoxu qaçmağa macal tapmayıb.

Bir axşam Zvi Somalidəki vəhşi heyvanlardan – aslan, leopard, kaftar və çaqqaldan danışanda, Lona onun əlindən tutub özünə çəkdi və ovcunu sinəsinə qoydu. Zvinin tükləri biz-biz oldu. Əlini xilas etməyə tələsdi. Gözlərini sürətlə qırpdı. Demək olar ki, ömrü boyu heç kimə toxunmamışdı. Toxunuşlardan az qala qanı donurdu. O, yumşaq torpağın, şitillərin zərif toxunuşunu sevirdi. Ancaq yad bədənlərin təması onu sıxır, alov dilləri kimi yandırırdı. Ona görə həmişə əl sıxmaqdan, çiyinə vurulan yumruqlardan, yeməkxanada adam çox olanda təsadüfi toxunuşlardan qaçırdı. Bundan sonra Zvi çox gözləməyib evinə getdi və səhəri gün qonaq getmədi. Zvi bilirdi ki, bu münasibətin çatacağı nöqtədə bədbəxtliklər, pisliklər, fəlakətlər onları gözləyir.

Lona isə heç nə başa düşmədi. Bircə ehtimal var idi: yəqin onun xətrinə dəyib. Üzr istəmək qərarına gəldi, ancaq niyə üzr istəyəcəyini bilmirdi. Bəlkə yersiz sual verib? Ya da sözlərində gizlənmiş mənanı anlamayıb? İki gün sonra Zvi evdə olmayanda Lona qapının altından kağız tulladı. Kağızda iri hərflərlə bu sözlər yazılmışdı: "Əgər xətrinizə dəymişəmsə, üzr istəyirəm. Danışa bilərik?" Zvi də yazılı cavab verdi: "Lazım deyil. Bunun axırı yaxşı olmayacaq". Buna baxmayaraq, Lona şam yeməyindən sonra yeməkxananın yaxınlığındakı iri ağacın altında gözləyib Zvinin qarşısına çıxdı:

– Nə günah işlətdiyimi izah edə bilərsiniz?

– Heç bir şey.

– Onda niyə məndən uzaqlaşırsınız?

– Başa düşün... bu, artıqdır.

Həmin gündən sonra görüşmədilər. Hətta eyni cığırla gedəndə, üz-üzə gələndə və ya təsadüfən ərzaq anbarının yanında qarşılaşanda sözsüz salamlaşır, bir saniyə tərəddüd edib, yollarına davam edirdilər. Roni Şindlin nahar edəndə masa qonşularına demişdi ki, Ölüm mələyi bal ayını yarımçıq qoyub və yenə hamımız təhlükədəyik. Həqiqətən, Zvi günortadan sonra klubda yığılan kişilərə Türkiyədə hərəkətin intensiv olduğu vaxtda aşan körpü barədə məlumat verdi.

İki-üç ay sonra Lona klassik musiqi sevənlər dərnəyinin görüşlərinə getməməyə başladı. Hətta pedaqoji şuranın iclaslarında da iştirak etmirdi. Saçlarını misə çalan qırmızı rəngə boyayıb, əlvan dodaq boyası istifadə etməyə başlamışdı. Vaxtaşırı yeməkxanadakı şam yeməyinə gəlmirdi. Payızda keçirilən Sukkot bayramında isə şəhərə gedib hamının çox açıq-saçıq hesab etdiyi – yan tərəfdən dərin yarığı var idi – bir paltar almışdı.

Payızın əvvəlində Lonanı böyük çəmənliyin yanındakı skamyada basketbol məşqçisi ilə

oturarkən görmüşdük. O, Lonadan on yaş cavan idi və həftədə iki dəfə Netaniyadan gəlirdi. Roni Şindlin istehza ilə deyirdi ki, indi Lona gecələr driblinq öyrənir. İki-üç həftə sonra o, basketbol məşqçisindən uzaqlaşdı və kibusu qoruyan bölüyün komandiri ilə birgə görünməyə başladı. Bu bölüyün əsgərləri hərbi xidmətlə yanaşı, kənd təsərrüfatı sahəsində bacarıqlara yiyələnirdilər.

Komandirin iyirmi iki yaşı var idi və bu dəfə susmaq olmazdı. Ona görə kibusun təhsil məsələlərinə baxan komissiya qapalı iclas keçirdi və bu cür görüşlərin mümkün aspektlərini müzakirə etdi. Zvi Provizor hər axşam fontanın yanındakı skamyada oturub, oynayan uşaqlara baxırdı. Bu skamyanı öz əlləri ilə düzəltmişdi. Yanından keçəndə "Axşamın xeyir" deyən olsaydı, "Axşamın xeyir" deyər və Çinin cənub-şərqini batıran leysan və sel barədə xəbər verərdi.

Qışın əvvəlində, tədris ilinin qızğın vaxtı Lona Blank heç kimə xəbər vermədən və kibusun katiblərinin icazəsi olmadan yığışıb Amerikada yaşayan bacısının yanına yola düşdü. Deyəsən, bacısı bilet göndərmişdi. Həmin səhər Lonanı avtobus dayanacağında görmüşdülər. Əynində şəhərdən aldığı açıq-saçıq paltar, boğazında rəngbərəng yaylıq, ayağında dikdaban çəkmə var imiş. İri çemodanını arxasınca sürüyə-sürüyə gedirmiş.

– Elə bəzənmişdi ki, guya gedən kimi Hollivuda düşəcək, – dedi Roni Şindlin…

Katiblik əsaslı araşdırmaya qədər onun kibusdakı üzvlüyünü ləğv etmək qərarına gəldi. Roni Şindlin isə masa qonşularına dedi:

– Qara dul Ölüm mələyindən qaçır.

Lona Blankın qıfıllı mənzili qaranlığa qərq olmuşdu. Ancaq kibusun məişət komissiyasında bu yaşayış məntəqəsinə göz dikənlər var idi. Çünki evə həmişə ehtiyac olur. Balaca verandada beş-altı dibçəkdə filodendron, ətirşah və kaktus qalmışdı. Zvi Provizor arada gəlib bitkiləri sulayır, torpağı yumşaldırdı. Sonra qış gəldi. Buludlar lap ağacların üstündə asılı qalmışdı. Talalarda və meyvə bağlarındakı torpaq palçığa döndüyü üçün kibusun əkinçiləri zavod işinə keçmişdilər. Boz yağışların ardı-arası kəsilmirdi. Gecələr su boruları danqıldayır, soyuq külək jalüzilərin dəliklərindən evlərə dolurdu. Zvi Provizor hər axşam on birin yarısına qədər son xəbər buraxılışlarına qulaq asa-asa stolüstü lampanın işığında polyak yazıçısı Yaroslav İvaşkeviçin əzabla dolu sətirlərini ivrit dilinə tərcümə edirdi.

Yatağının başında Lonanın hədiyyə etdiyi rəsm – iki sərv və skamya – asılmışdı. İndi sərvlər kədərli, skamya isə tənha görünürdü. Zvi on birin yarısı gödəkçəsini çiyninə salıb verandaya çıxır, başının üstündəki buludlara, fonarın sarı işığına boyanmış tənha yollara baxırdı. Yağış səngiyəndə gəzintiyə çıxır, Lonanın verandasındakı çiçəklərə baş çəkirdi. Artıq xəzan yarpaqları pillələrin üstünü örtmüşdü. Bəzən Zvi bağlı qapının arxasından gələn sabun (bəlkə də şampun) ətri duyurdu.

Burdan aralanıb bir qədər tənha cığırlarda dolaşırdı. Yağış damlaları budaqlardan düşüb onun çılpaq başına dəyirdi. Gəzintini tez bitirib evə qayıdır və qaranlıqda gözlərini qırpa-qırpa son xəbər buraxılışına qulaq asırdı. Səhəri gün isə sübhdən oyanır və səhər sağımına tələsən maldarlardan birini saxlayıb, kədərli xəbəri verirdi:

– Bu gecə Norveçin kralı ölüb. Qara ciyər xərçəngindən. Eşitmisən?

**Tərcümə etdi:**
**İlahə Əkbər**



## "DÜNYA" MƏKTƏBİ 2016-2017- ci TƏDRİS İLİ ÜÇÜN 1-11-ci SİNİFLƏRƏ ŞAGİRD QƏBULU ELAN EDİR

Xəzər Universiteti "Dünya" məktəbi, 2016-2017-ci tədris ili üçün 1-11-ci siniflərə şagird qəbulu elan edir. Tədris Beynəlxalq bakalavr proqramı (IB) üzrə ixtisaslaşmış xarici və yerli müəllimlər tərəfindən həyata keçirilir.

IBPYP – 1-4 ibtidai sinifləri, İBMYP – 5-9-cu sinifləri, IBDP isə 10-11-ci sinifləri əhatə edir.

Xəzər Universiteti "Dünya" məktəbi 2009-cu ildən Beynəlxalq bakalavr diplom proqramının (IBDP) tədrisi ilə məşğuldur. Məktəb bu sahədə çoxsaylı uğurlara imza ataraq, ibtidai və orta məktəb üzrə yüksək standartlara malik keyfiyyətli Beynəlxalq bakalavr təhsili verir. "Dünya" məktəbinin şagirdləri yerli və beynəlxalq olimpiadalarda müvəffəqiyyətlə iştirak edir və yüksək nəticələr əldə edirlər.

"Dünya" məktəbinin məzunları dünyanın məşhur universitetlərində (Oxford, Boston, Lancaster, Surrey, Warwick və s.) təhsil alırlar.

Tədris akademik və sosial baxımdan zəngin olması ilə yanaşı, həm də məktəbdənkənar fəaliyyəti ilə şagirdlərin hərtərəfli inkişafı üçün qayğıkeş mühit yaradır. Məktəbin şagirdləri konfranslar təşkil etməklə bərabər, həm də xarici ölkələrdə (Türkiyə, Yunanıstan, İngiltərə) konfranslarda müvəffəqiyyətlə çıxış edirlər.

Məktəbə qəbul imtahanlar əsasında həyata keçirilir.
Qəbul imtahanında yüksək nəticə göstərən şagirdlər güzəştli təhsil imkanı əldə edirlər.
"Dünya" məktəbi yolunuzu gözləyir.

ELAN•ELAN•ELAN•ELAN•ELAN•ELAN



## DUNYA SCHOOL ANNOUNCES ADMISSION FOR 1-11$^{TH}$ GRADE STUDENTS FOR THE 2016-2017 SCHOOL YEAR

Khazar University's affiliate Dunya School announces admission for the school year 2016-2017.

The school has been authorized to offer the International Baccalaureate Diploma Program (IBDP) since 2009.

Dunya School offers an excellent quality of IB education (PYP, MYP and DP) for children from the grade K to the IB Diploma Program.

Dunya School IB graduates study at prestigious universities abroad like Oxford, Boston, Lancaster, Surrey, Warwick and others.

We provide an outstanding standard of education: it is both academically and socially balanced, with high standards of learning and understanding and impressive examination performance, while offering a wide variety of extra-curricular activities within a caring and positive environment.

Our students organize the annual IB Forum and attend the conferences abroad as well.

The Admissions Office's commitment is to give you all the information you need to make the application process as smooth as possible.

If you wish to enroll your child at Dunya School, we look forward to hearing from you and assisting you with the admissions process.



# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

***TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.***



**DAVİD SASSUN KİTABXANASI HİNDİSTAN**

**Kitabxana Hindistanın Mumbay şəhərində yerləşir. 1870-ci ildə memarlar - J. Kempbell və Ge Qoslinqin layihəsi əsasında inşa edilmişdir.**



## XOSE VASKONSELOS ADINA KİTABXANA MEKSİKA

**Kitabxananın açılışı 2008-ci ildə olmuşdur. İnşasına 98 milyon dollar xərclənmişdir. 38 min kvadratmetr sahəni əhatə edir.**



## Valideynlərin və şagirdlərin nəzərinə!

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

# Dünya məktəbi

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

# Məktəbəqədər hazırlıq

2016-2017 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az



Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

I qrup üzrə:

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi
- Mexanika mühəndisliyi

II qrup üzrə:

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

III qrup üzrə:

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

IV qrup üzrə:

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

Ünvan: Məhsəti küçəsi, 41
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78,
(012) 421-79-27
Faks: (012) 498-93-79
İnternet: http//www.khazar.org

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
siteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və
Xəzər Univer diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

QS (World University Rankings) təşkilatının 2015-ci il sentyabrın 15-də elan etdiyi reytinq cədvəlinə əsasən Xəzər Universiteti dünyanın ən yaxşı 700 üniversiteti arasında yer almışdır.

2015-ci il oktyabrın 21-də QS (World University Rankings) təşkilatı 2015/16-cı tədris ili üçün inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil müəssisəsi arasında yer almış tək universitetdir.

***

*Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.*

***Professor Əjdər Ağayev,***
***Azərbaycan Təhsil Şurasının sədri***

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**